HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№22 (612) ■ 13 iyun 2012 www.vergiler.az Qiymәti: 40 qәp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

## Müasir Azərbaycan: Heydər Əliyevin şah əsəri

*Tarixdə şəxsiyyətlərin böyüklüyü, onların miqyasları bir tərəfdən yaşadığı dövrdə gördüyü işlərin, yaratdıqlarının əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən bu fəaliyyətin gələcək əks-sədaları, uzun illər hadisələrin axarına təsiri ilə müəyyənləşir. Bu baxımdan, ulu öndərin şah əsəri olan müasir Azərbaycan fikrimizə bariz nümunədir.*

Zəngin keçmişə və qədim dövlətçilik ənənələrinə malik Azərbaycan xalqının tarixinə nəzər saldıqda onun XX əsrdə ən parlaq səhifələrini əhatə edən dövrün ümummilli lider Heydər Əliyev fenomeni ilə bağlılığını, bu zaman kəsiyində ölkəmizin keçdiyi böyük inkişaf yolunun məhz ulu öndərin misilsiz xidmətlərinin nəticələri olduğunu bir daha aydın müşahidə etmək mümkündür. Azərbaycanın yeni yüzilliyə müstəqil dövlət olaraq böyük uğurlara imza atmış ölkə kimi qədəm qoyması da Heydər Əliyev dühası ilə bağlıdır.

Tarixi həqiqətdir ki, Azərbaycan sürətli və böyük inkişaf yolunu məhz Heydər Əliyev epoxasında keçib, dünyanın siyasi sistemində özünəməxsus yerini müəyyənləşdirib, yeni dövrün tələblərinə uyğun olaraq dövlətçiliyin əsaslarını, onun fəlsəfəsini yaradıb. Ziddiyyətlərlə dolu XX əsrdə müstəqilliyə gedən yolun başlanğıcı da Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev tərəfindən qoyulub. Hələ SSRİ imperiyasının ən qüdrətli dövründə, ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanın siyasi həyatı və bütövlükdə cəmiyyət Heydər Əliyevin göstərdiyi səylər nəticəsində yeni impuls və inkişaf parametrləri qazanaraq, əslində, özünün mükəmməl və müstəqilliyə hesablanan inkişaf mərhələsinə daxil olub.

Ötən əsrin son onillyində dövlət müstəqilliyinin bərqərar olunması istiqamətində atılan ən mühüm addımlar da bu dahi şəxsiyyətin adı ilə bağlıdır. Moskvadan Azərbaycana qayıtdıqdan sonra Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından «sovet sosialist» sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması ulu öndərin müstəqilliyə gedən tariximizdə ən parlaq xidmətləri sırasına daxildir. Məhz Heydər Əliyevin bu addımlarından sonra - 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir sıra mühüm qərarlar qəbul etdi, dövlətin adı dəyişdirilərək Azərbaycan Respublikası adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.



Dövlət müstəqilliyinin ilk illərində iqtidarda olan səriştəsiz qüvvələr üzündən olduqca çətin duruma düşən, Ermənistanın işğalçılıq siyasəti nəticəsində ərazi itkiləri ilə üzləşən, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi yaşayan Azərbaycanın ağır günlərində xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda hakimiyyətə qayıdan Heydər Əliyev ölkənin başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürdü, ictimai-siyasi sabitliyin tam bərpasına nail oldu, qanunsuz silahlı dəstələri zərərsizləşdirdi, demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi inkişaf strategiyasını irəli sürdü ki, bütün bunlar müstəqilliyin qorunub saxlanmasında və daha güclü dayaqlara malik olmasında müstəsna rol oynadı.

***davamı 2-ci səhifədə***

rəsmi xronika

## Qarşılıqlı səfərlər dostluq və tərəfdaşlıq əlaqələrinin göstəricisidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da ABŞ-ın dövlət katibi Hillari Klintonu qəbul etmişdir.

Hillari Klintonun Azərbaycana növbəti səfərindən məmnunluğunu bildirən dövlətimizin başçısı bunu ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin göstəricisi kimi dəyərləndirmişdir. Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında iqtisadi, enerji, regional təhlükəsizlik, siyasi islahatlar, münaqişənin nizama salınması və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunan Prezident İlham Əliyev ikitərəfli əlaqələrimizin uğurla inkişaf etdiyini bildirmişdir.

Xanım Hillari Klinton yenidən Bakıya səfərindən və ikitərəfli əlaqələrimizlə bağlı Azərbaycan Prezidenti ilə məsləhətləşməkdən məmnun olduğunu demişdir. Hillari Klinton Azərbaycan Prezidenti İlham Əliyevin NATO-nun Çikaqo sammitində iştirakının önəmini qeyd etmişdir. Ölkələrimizin bir çox sahələrdə uğurlu əməkdaşlıq etməsinin əhəmiyyətini vurğulayan ABŞ-ın dövlət katibi ölkəsinin Azərbaycan ilə sıx və strateji tərəfdaşlıq əlaqələrinin olmasını məmnunluqla qeyd etmişdir. Azərbaycanın regionda mühüm rolunu vurğulayan xanım Klinton ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı müzakirə olunacaq məsələlərin geniş gündəliyə malik olduğunu demişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, ölkələrimizin enerji və digər sahələrdə əməkdaşlığının genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## Prezident İlham Əliyev: «Qarşılıqlı əlaqələr uğurla inkişaf edir»

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Niderland Krallığının İqtisadi məsələlər, Kənd Təsərrüfatı və İnnovasiyalar Nazirliyinin Xəzər regionunun enerji məsələləri üzrə xüsusi tapşırıqlar səfiri Rene van der Lindeni qəbul etmişdir. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulamış, Niderland şirkətlərinin Azərbaycanda səmərəli fəaliyyətinə toxunmuş və bu əməkdaşlığın daha da genişləndirilməsinin önəmini qeyd etmişdir.

Rene van der Linden ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafını yüksək qiymətləndirmişdir. Əməkdaşlığımızın genişləndirilməsində qarşılıqlı işgüzar səfərlərin əhəmiyyətini qeyd edən niderlandlı qonaq Bakıda keçirilən XIX Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransında ölkəsinin geniş şəkildə təmsil olunduğunu məmnunluqla vurğulamışdır.

## İkitərəfli münasibətlərimizin zəngin tarixi var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Lord Şeyx Mohamed İltaf, Lord Patel Kamleş Kumar, Lord Dük Hugh Con Maksvell, Lord Risbi Riçard Con Grenvilldən ibarət Böyük Britaniya nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı NATO-nun Çikaqo sammitində Böyük Britaniyanın Baş naziri Devid Kemeron ilə görüşünü və ikitərəfli əlaqələrimizlə bağlı aparılan müzakirələri məmnunluqla xatırlamışdır. Azərbaycanın Böyük Britaniya ilə ikitərəfli münasibətlərinin tarixinin zəngin olduğunu vurğulayan Prezident İlham Əliyev enerji sektorunda, sərmayə qoyuluşu və eləcə də iqtisadiyyatın digər sahələrində əməkdaşlığın önəmini qeyd etmişdir. Bakıda keçirilən 19-cu Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bp-nin Azərbaycanın əsas tərəfdaşlarından biri olduğunu, təkcə enerji sahəsində deyil, digər sahələrdə də uğurlu əməkdaşlıq etdiyini demişdir.

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır**:

Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I kitab maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115) aşağıdakı dəyişikliklər edilsin:

1. 16.1.8.17-ci maddədə «vəkillik» sözündən sonra «notariat» sözü əlavə edilsin;

2. 33.1-ci maddənin birinci hissəsində «yaşadıqları» sözündən sonra «xüsusi notariuslar isə fəaliyyət göstərdiyi» sözləri əlavə edilsin;

3. 96.1-ci maddəyə aşağıdakı məzmunda ikinci bənd əlavə edilsin:

«Xüsusi notarius tərəfindən bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlar (xərclər nəzərə alınmadan) vergitutma obyektidir.»;

4. 99.3.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 99.3.10-cu maddə əlavə edilsin:

«99.3.10. xüsusi notarius tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlar.»;

5. aşağıdakı məzmunda 101.4-cü maddə əlavə edilsin:

«101.4.Xüsusi notarius üçün bu Məcəllənin 96.1-ci maddəsinin ikinci bəndi ilə müəyyən edilmiş vergitutma obyektindən 10 faiz dərəcə ilə vergi tutulur.»;

6. 149.1.4-cü maddədə «ödəmə» sözündən əvvəl «xüsusi notariuslar,» sözləri əlavə edilsin;

7. 149.2-ci maddədə «şəxslər» sözündən sonra «(xüsusi notariuslar istisna olmaqla)» sözləri və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«Xüsusi notariuslar hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına bəyannamə verməlidirlər.»;

8. 149.6-cı maddənin ikinci cümləsində «maddəsində» sözü «maddəsinin birinci cümləsində» sözləri ilə əvəz edilsin;

9. 150.1.2-ci maddədə «sahibkarlar» sözündən sonra «və xüsusi notariuslar» sözləri əlavə edilsin;

10. 150.3-cü maddədə «və fərdi sahibkarlar» sözləri «, fərdi sahibkarlar və xüsusi notariuslar» sözləri ilə əvəz edilsin;

11. 151.1-ci maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

«Xüsusi notariuslar bu Məcəllənin 101.4-cü maddəsi ilə müəyyən edilmiş dərəcə ilə hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.»;

12. 164.1.6-cı maddədə «yığımlar» sözündən sonra «, xüsusi notariusların aldığı haqlar (notariat hərəkətlərinin aparılmasına və notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə)» sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2012-ci il.*

## «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2012-ci il 1 may tarixli 351-IVQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2012-ci il 1 may tarixli 351-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2012-ci il.*

2 | Qarşılıqlı əlaqələr genişlənir
3 | Proqnozlar özünü doğruldur
4 | «Azərbaycanın həyata keçirdiyi islahatlar bizim üçün örnəkdir»
5 | «Vergilər Nazirliyinin elektron xidmətlər sahəsində tətbiq etdiyi layihələr mühüm əhəmiyyət daşıyır»

# Müasir Azərbaycan: Heydər Əliyevin şah əsəri

*əvvəli 1-ci səhifədə*

Bütün bunların həyata keçirilməsində xalqının dəstəyinə arxalanan ulu öndər hələ 1993-cü il oktyabrın 10-da keçirilmiş prezidentin andiçmə mərasimində qeyd edirdi: «Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm».

Beləliklə, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə Bakıya dəvət olunması qardaş qırğınının, ölkənin parçalanmaq təhlükəsinin qarşısını aldı. Azərbaycan ağır fəlakətlərdən, təhlükələrdən qurtuldu. Ölkədə Qurtuluş Hərəkatı uğurla başa çatdı və 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə ölkə tarixinə Milli Qurtuluş Günü kimi möhtəşəm gün qızıl hərflərlə yazıldı. XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması böyük öndərimizin siyasi fəaliyyətinin nəticəsi, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə onun hakimiyyətə qayıdışının bəhrəsidir. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə başlayan qurtuluş məfkurəsi ilk növbədə Azərbaycanı faciələrdən xilas etməklə yanaşı, ölkəmizin sürətli dinamik inkişafının da çox etibarlı təməlini yaratdı. Qurtuluş məfkurəsi, qurtuluşdan başlayan siyasət bu gün də Azərbaycanın, hər bir vətəndaşın, ailənin həyatındadır. 19 il əvvəl parçalanmaq təhlükəsi ilə üzləşən Azərbaycan dünyanın ən dinamik inkişaf edən dövlətinə çevrildi.

Milli Qurtuluş Gününün siyasi-ictimai əhəmiyyətini qeyd edən ulu öndərin siyasi varisi, Prezident İlham Əliyev 1993-cü ilin iyunun 15-də müstəqil Azərbaycan tarixində yeni səhifə açıldığını bildirmişdir: «O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərcmərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan ümummilli lider Heydər Əliyev olmuşdur. Onun zəhmətidir, onun əməyidir və xalqla birlikdə bu gün biz Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk».

«Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat və sahibkarlıq yoludur», - deyən ümummilli liderin gərgin əməyi nəticəsində iqtisadiyyatın keyfiyyətcə yeni mərhələsinin başlanması, özəl sektorun sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirilməsi, güclü sahibkarlar təbəqəsinin formalaşması, bu məqsədlə 1997-2003-cü illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatının yaradılması, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazasının formalaşdırılması, investisiyaların təşviqi üçün respublikada münbit şəraitin təmin olunması, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə edilməsi, xarici kapital qoyuluşunun enerji sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına yönəldilməsi ulu öndərin misilsiz xidmətlərindəndir.

Ulu öndərin əsasını qoyduğu milli tərəqqi doktrinasını yeni dövrün meyarlarına uyğun inkişaf etdirən Prezident İlham Əliyev Azərbaycanın keçid iqtisadiyyatını tamamilə arxada qoymasına nail olub. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin yaratdığı zəngin idarəçilik institutunun möhkəm dayaqları üzərində yeni dövrün reallıqları nəzərə alınmaqla çevik, unikal, modern bir idarəetmə platforması formalaşdırıb.

Son 9 ildə Azərbaycan regionda mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirərək dünya iqtisadiyyatına sıx inteqrasiya proseslərini sürətləndirməklə, eyni zamanda, tərəfdaş ölkələrin enerji təminatında mühüm yer tutaraq onların yüksək etimadını qazanmaqla beynəlxalq aləmdə nüfuz sahibinə çevrilmişdir. 2003-2011-ci illər ərzində ölkəmizin inkişaf baxımından yeni mərhələyə qədəm qoyması və iqtisadiyyatın strukturunda keyfiyyət dəyişikliklərinin baş verməsi Azərbaycanın ümumi inkişafını daha da sürətləndirib, büdcənin potensial maliyyə tutumunu genişləndirib. Qeyd olunan dövrdə ümumi daxili məhsulun həcmi 3 dəfədən çox artıb. 2003-2011-ci illər ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilmiş büdcə xərcləri 5, orta aylıq əməkhaqqı 3,5, əhalinin gəlirləri 4, minimum pensiyanın məbləği 5, minimum əməkhaqqı isə 7,5 dəfədən çox artıb. Yoxsulluq səviyyəsi 6 dəfə azalaraq 44,7 faizdən 7 faizə düşüb. Eyni zamanda, ölkənin iqtisadi təhlükəsizliyini təmin edə biləcək valyuta ehtiyatları formalaşdırılıb və onun həcmi 42 milyard dolları ötüb.

«Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı dünya miqyasında bir fenomendir», - deyən Prezident İlham Əliyev respublikamızın yeni innovativ inkişaf mərhələsinə qədəm qoymasına nail olub. Hazırda yeni əsrin ikinci onilliyinə yeni inkişaf meyarları ilə daxil olan ölkəmizin qarşısında müasir çağırışlar meydana çıxıb. Bu çağırışlar Azərbaycanda qeyri-neft sektorunun iqtisadiyyatda dominantlığını və çoxşaxəli iqtisadiyyatın sektorial davamlılığını təmin etmək, innovasiyaların tətbiqi dairəsini genişləndirməkdən ibarətdir.

**Anar ƏLİYEV**

# Operativ nəzarət tədbirləri

2012-ci ilin may ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən ödəyicilərin aşkarlanması, valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 3151 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. 1541 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 402 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu və valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satıldığı və ya dəyişdirildiyi, 202 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 562 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir.

Operativ nəzarət tədbirləri zamanı 208 vergi ödəyicisi tərəfindən 402 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 189 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 47 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 507 ədəd mal aşkarlanmışdır.

Bütün faktlarla bağlı qanunamüvafiq tədbirlər görülmüşdür.

# Vergi ödəyiciləri məlumatlandırılır

2012-ci ilin may ayı ərzində Vergilər Nazirliyinin Telefon Xidmətinə daxil olmuş 18.973 müraciət, o cümlədən müfəttiş operatorlar tərəfindən canlı rejimdə 9.230, avtomatik rejimdə elektron operator tərəfindən 9.743 müraciət cavablandırılmışdır. 35.268 vergi ödəyicisi mesaj göndərilməklə məlumatlandırılmışdır. 2011-ci ilin may ayı ilə müqayisədə canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən cavablandırılan müraciətlərin sayı 24,8% artmışdır.

Hesabat dövründə vergi ödəyiciləri daha çox elektron xidmətlər (25,9%), qeydiyyat (19,3%), vergilərin növləri (14,8%), büdcə, vergi ödəyiciləri və vergi orqanının rekvizitləri (11%), hesabatlar və onların doldurulma qaydaları (4,9%) barədə məlumat əldə etmək istəmişlər. Avtomatik rejimdə cavablandırılan müraciətlər vergi növləri və dövlət büdcəsinə olan vergi borcları ilə bağlıdır.

Canlı rejimdə cavablandırılan sualların 98,7%-nə müfəttiş-operatorlar dərhal, 1,3%-nə isə sual vərəqəsi tərtib edilərək araşdırıldıqdan sonra cavab verilmişdir. Operatorlarla ilk telefon əlaqəsindən sonra sualların tam cavablandırılması səviyyəsi 92,9%, müraciət edənlərin razı qalma səviyyəsi isə 98,3% təşkil etmişdir. Sualların 83,4%-i Bakı şəhərindən, 11,9%-i mobil operatorlardan, qalanları isə ölkənin müxtəlif bölgələrindən daxil olmuşdur.

Hesabat dövründə əhalidən şikayət (ərizə) və məlumat xarakterli 58 müraciət qəbul edilərək baxılması üçün aidiyyəti üzrə göndərilmişdir.

# 2012-ci ilin yanvar-may aylarında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 2,5 milyard manatdan çox vəsait daxil olub

2012-ci ilin yanvar-may aylarında Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2 milyard 577 milyon 132,5 min manat təşkil etmişdir. Vergi daxilolmalarının 41,3%-i mənfəət vergisinin, 22,9%-i əlavə dəyər vergisinin, 11,9%-i fiziki şəxslərin gəlir vergisinin, 6,9%-i aksizlərin, 17%-i isə digər vergilərin payına düşür.

Qeyri neft-qaz sektoru üzrə 1 milyard 354 milyon 256 min manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 13,6% çoxdur.

Yanvar-may aylarında respublika üzrə qeydiyyatdan keçmiş vergi ödəyicilərinin ümumi sayı 32 min 256, 2011-ci ilin iyul ayının 1-dən cari ilin iyun ayının 1-dək elektron qaydada qeydiyyata alınmış fiziki şəxslərin sayı 30 min 82 olmuşdur. 1 iyun 2012-ci il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 447 min 349 təşkil etmişdir.

2012-ci ilin yanvar-may ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 91,8% olmuşdur.

# Qarşılıqlı əlaqələr genişlənir



İyun ayının 11-də Vergilər Nazirliyində Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) nümayəndə heyəti ilə görüş keçirilmişdir. BMK-nın tədbirdə çıxış edən nümayəndəsi İrina Niderberger görüşün keçirilməsində əsas məqsədin bu təşkilatın yaxın gələcəkdə regionda təqdim etmək istədiyi xidmətlər haqqında qarşı tərəfə məlumat vermək olduğunu bildirmişdir. O, Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə artıq bir neçə ildir müxtəlif sahələr üzrə əməkdaşlıq etdiklərini və bu əlaqələrdən məmnun olduqlarını bildirmişdir.

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov Amerikadan gəlmiş qonaqları salamlayaraq, son illər Vergilər Nazirliyi tərəfindən həyata keçirilmiş islahatlar və bu gün həmin islahatların müsbət nəticələri barədə onlara məlumat vermişdir. Sonra o, 2006-cı ildən etibarən Vergilər Nazirliyində tətbiq edilən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) 3-cü mərhələsinin tətbiqi üzərində işlərin aparıldığını vurğulamışdır. 2003-cü ildə - Vergilər Nazirliyi yaranandan 3 il sonra inzibati ərazi bölgüsü üzrə müvafiq vergi qurumlarının ləğv olunaraq onların əvəzinə 12 Ərazi Vergilər İdarəsinin yaradıldığını bildirən nazir müavini, nəticədə, Azərbaycanın vergi sistemində işlək bir strukturun mövcud olduğunu qeyd etmişdir.

Diqqəti vergi ödəyicilərinə xidmət sahəsində görülən işlərə yönəldən S.Ələkbərov vergi ödəyicilərinin rahatlığını təmin etmək üçün 33 Vergi Ödəyicilərinə Xidmət Mərkəzinin istifadəyə verildiyini bildirmişdir. O, 2011-ci ilin iyul ayından fiziki şəxslərin, cari ilin fevral ayından isə kommersiya hüquqi şəxslərin onlayn rejimdə elektron qeydiyyatına başlandığını qonaqların nəzərinə çatdırmışdır. Nazir müavini ƏDV dələduzluğuna qarşı mübarizə sahəsində vahid ƏDV depozit hesabının yaradılması ilə bir çox problemlərin öz həllini tapdığını və ilk illərdə vahid depozit hesabının tətbiqi nəticəsində qeyri-neft sektoru üzrə ƏDV daxilolmalarının xeyli artdığını bildirmişdir.

Vergi orqanlarında şəffaflığın təmin edilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər, bu yaxınlarda Beynəlxalq Antikorrupsiya Akademiyası ilə Vergilər Nazirliyi arasında imzalanmış memorandum və növbəti ildən ölkədə elektron auditin tətbiqinə başlanılacağı barədə də qonaqlara məlumat verilmişdir. Nazir müavini, həmçinin, Vergi Məcəlləsinə dəyişikliklərin edilməsi ilə bağlı təkliflərin hazırlanaraq müvafiq qurumlara təqdim olunduğunu bildirmişdir.

Çıxışının sonunda Sahib Ələkbərov Vergilər Nazirliyinin Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıqda maraqlı olduğunu və birgə fəaliyyət sayəsində uğurlu layihələrə imza atacaqlarına ümid etdiyini vurğulamışdır.

Tədbirdə transfert qiymətlər və sadələşdirilmiş vergi ətrafında qarşılıqlı fikir mübadiləsi aparılmışdır. Görüşdə çıxış edən Beynəlxalq Maliyyə Korporasiyasının biznesin vergiyə cəlb olunması üzrə məsləhətçiləri Jan Loeprik və Coel Kuper Azərbaycanın vergi sahəsində həyata keçirdiyi islahatları yüksək qiymətləndirdiklərini və bu sahədə ölkəmizin regionun lider ölkələrindən birinə çevrildiyini bildirmişlər. Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən sadələşdirilmiş vergi üzrə bir çox ölkələrdə tədqiqatlar aparıldığı, bunun nəticəsində əksər ölkələr tərəfindən sadələşdirilmiş vergi üzrə diferensiasiyanın tətbiq edilməsinin əsas tendensiya kimi qeydə alındığı vurğulanmış, transfert qiymətqoyma üzrə beynəlxalq təcrübə sahəsində fikir mübadiləsi aparılmışdır.

Sonra Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev, vergilər nazirinin müşavirləri Asəf Əsədov və Ələkbər Məmmədov çıxış edərək müzakirə olunan məsələlərə öz münasibətlərini bildirmişlər.

**Arzu İBRAHİMOVA**

# Bakıda XIX Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgisi




Xəzəryanı regionun neft-qaz sahəsində ən böyük tədbir olan «Caspian Oil and Gas 2012» sərgisində dünyanın 35 ölkəsindən 304 şirkət öz ekspozisiyalarını nümayiş etdiriblər. Sərgidə Böyük Britaniya, Almaniya, Çin, Rusiya və Türkiyə öz milli qruplarını təqdim ediblər. Builki sərgidə MDB, Avropa və Şərqi Asiya ölkələrindən olan şirkətlərin sayı nəzərəçarpacaq dərəcədə artıb. Vyetnamdan olan şirkətlər isə bu sərgidə ilk dəfə çıxış ediblər. Sərgi pavilyonunun 40%-dən çox hissəsini bütün dünyada məşhur olan şirkətlər və «Caspian Oil & Gas» sərgisinin daimi iştirakçıları, 59%-ni xarici iştirakçılar, yerdə qalan hissəsini isə yerli istehsalçılar və xarici şirkətlərin yerli nümayəndəlikləri tutublar. Bundan əlavə, ekspozisiyanın 10%-ni Azərbaycan bazarında əvvəllər heç vaxt fəaliyyət göstərməyən şirkətlər təşkil ediblər.

Sərgidə iştirak etmiş Vergilər Nazirliyi öz pavilyonu ilə tədbir iştirakçılarının, xüsusilə xarici və yerli sahibkarların böyük marağına səbəb olmuşdur. Tədbir keçirilən müddətdə Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşları tərəfindən sərgi iştirakçılarını maraqlandıran suallara ətraflı cavablar verilmiş, çoxlu sayda məlumatlandırıcı, maarifləndirici materiallar və nəşrlər paylanmışdır.

# Proqnozlar özünü doğruldur

**Milli Məclisin 29 may 2012-ci il tarixli plenar iclasında «Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Büdcəyə edilən dəyişikliklər və bu dəyişikliklər fonunda vergi məsələləri ilə bağlı Vergilər Nazirliyinin İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin rəisi Elçin Bəylərova müraciət etdik.**

***- Elçin müəllim, 2012-ci ilin büdcə gəlirlərinin dürüstləşdirilməsinin başlıca mahiyyəti nədən ibarətdir?***

- Ediləcək dəyişikliklərin əsas mahiyyəti Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq ölkənin şimal-qərb bölgəsində baş vermiş zəlzələ nəticəsində Zaqatala, Qax, Balakən və Şəki rayonlarının əhalisinə və sosial-iqtisadi infrastrukturlarına dəymiş ziyanın, 2010-cu ildə Kür və Araz çaylarının Sabirabad və Salyan rayonlarının ərazisində yaratdığı irimiqyaslı fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı işlərin başa çatdırılması, cari ildə ölkənin bəzi rayon və şəhərlərinin ərazisində normadan artıq yağan leysan yağışlarının, sel və daşqınların törətdiyi fəsadların aradan qaldırılması, ölkədə ehtimal olunan təbii fəlakət və fövqəladə halların qarşısının alınması və qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə xüsusi təyinatlı maşın və avadanlıqların alınması, Bakı şəhərinin bir sıra ərazilərində müəyyən edilmiş sürüşmə zonalarında müvafiq tədbirlərin görülməsi üçün əlavə maliyyə təminatının yaradılması olmuşdur.

Bunlarla yanaşı, Bakı şəhərinin ətraf ərazilərində və kəndlərində qurunt sularının səviyyəsinin qalxması ilə bağlı tədbirlərin görülməsi, ekoloji və sanitar durumun yaxşılaşdırılması, habelə 2012-ci ilin ötən dövrü ərzində ölkənin hərbi quruculuğu və təhlükəsizliyi sahəsində qəbul edilmiş fərman və tapşırıqların icrası və dövlət büdcəsində əvvəlcə nəzərdə tutulmayan tədbirlərin maliyyələşdirilməsi üçün əlavə vəsaitin cəlb edilməsi zərurəti yaranmışdır.

***- 2012-ci ilin büdcə gəlirlərinin əsas mənbələri və xərc istiqamətləri haqqında nə deyə bilərsiniz?***

- 2012-ci ilin dövlət büdcəsinin dürüstləşməsinə əsas verən iqtisadi göstəricilər - ölkənin əsas makroiqtisadi göstəricilərindən olan ÜDM-in təsdiq olunmuş göstəricilərlə müqayisədə 3,2 milyard manat artaraq 46,7 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in 2,4 milyard manat artaraq 27,3 milyard manat gözlənilməsi, həmçinin ilin sonuna neftin qiymətinin dünya bazarlarında yüksək olmasının proqnozlaşdırılması, habelə cari ilin ötən dövründə neftin ixrac qiymətinin dövlət büdcəsində nəzərdə tutulduğundan yüksək olmasıdır.

Qeyd etmək lazımdır ki, dövlət büdcəsinin gəlirləri və xərcləri 600 milyon manat və ya 3,7% artırılaraq gəlirləri 17.038 milyon manata, xərclər isə 17.672 milyon manata çatdırılacaqdır. Dövlət büdcəsinə əlavə vəsaitin iqtisadiyyatın neft və qeyri-neft sektoru üzrə əlavə vergi daxilolmaları hesabına təmin edilməsi nəzərdə tutulmuşdur.

***- Cari ilin büdcə gəlirlərində vergi daxilolmalarının payı nə qədər proqnozlaşdırılır?***

- 2012-ci ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 5 milyard 911,6 milyon manat daxilolma proqnozlaşdırılır ki, bu da 2012-ci il üzrə təsdiq olunmuş proqnozdan 600 milyon manat (11,3%) çox, eyni zamanda 2011-ci ilin faktı ilə müqayisədə 439,7 milyon manat (8,0%) çoxdur. Artımın 500 milyon manatı (83,3%) neft sektorunun, 100 milyon manatı (16,7%) isə qeyri-neft-qaz sektorunun payına düşür. Xüsusilə qeyd etmək lazımdır ki, Dövlət Neft Fondundan transfertlər nəzərə alınmadan Vergilər Nazirliyinin xətti ilə 2012-ci il üzrə proqnozlaşdırılan daxilolmaların büdcə gəlirlərində xüsusi çəkisi 2011-ci ilin faktına nisbətən 1,2 bənd artaraq 82,9% təşkil edəcəkdir. Bununla da ÜDM-də dövlət büdcəsinin gəlirlərinin xüsusi çəkisi 2011-ci ilin yekunları üzrə faktiki göstəricilərlə müqayisədə 5,1% artaraq 36,5% təşkil edəcək və dövlət büdcəsinin kəsiri dəyişməyəcək.



Proqnozlaşdırılan əlavə daxilolmaların əksər hissəsinin neft sektorunun payına düşməsi, ilk növbədə, dünya bazarında xam neftin ixrac qiymətinin cari ilin dövlət büdcəsinin hazırlanması zamanı istifadə olunan orta illik göstəricidən yüksək olması ilə əlaqədardır. Eyni zamanda, cari ilin ötən dövrünün daxilolmalarının vəziyyəti xam neftin ixrac qiymətinin konservativ yanaşma metodu ilə 100 ABŞ dolları götürülməklə dövlət büdcəsi gəlirlərinin hesablanmasına əsas vermişdir. Qeyd olunanlar nəzərə alınmaqla, ABƏŞ üzrə mənfəət vergisinin ilin sonuna nəzərdə tutulmuş proqnozdan 470 milyon manat, Azərbaycan Dövlət Neft Şirkəti üzrə nəzərdə tutulduğundan 30 milyon manat çox olacağı nəzərdə tutulmuşdur.

Qeyri-neft-qaz sektoru üzrə 100 milyon manat əlavə artımdan sonra vergi orqanlarının xətti ilə bu sektor üzrə toplanan vergi ödənişlərinin həcminin 3 milyard 280 milyon manat olması proqnozlaşdırılır ki, bu da qeyri-neft-qaz sektoru üzrə ÜDM-in gözlənilən 9,1% artım fonunda 2011-ci ilin faktı ilə müqayisədə 409,2 milyon manat (14,3%) çox, 2012-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 100 milyon manat (3,1%) çoxdur.

Xüsusilə vurğulamaq istərdim ki, 2012-ci ilin dövlət büdcəsində Vergilər Nazirliyinin xətti ilə proqnozlaşdırılan vəsait vergi daxilolmalarında ən yüksək göstərici olmuş 2008-ci illə müqayisədə 216,2 milyon manat (3,8%) artımla nəzərdə tutulmuşdur.

***- «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın həyata keçirilməsi regionlar üzrə vergi daxilolmalarına necə təsir etmişdir?***

- Regionlarda mövcud olan təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək, infrastrukturu yeniləşdirmək, əlverişli investisiya şəraiti, müasir tipli müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi məqsədilə qəbul edilmiş «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasına başlanıldığı dövrdən öz müsbət nəticələrini verməkdədir.

Azərbaycan Prezidentinin vaxtaşırı olaraq bölgələrə etdiyi səfərləri, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasına şəxsən nəzarət etməsi regionların inkişafının sürətləndirilməsinin dövlətin iqtisadi siyasətinin başlıca hədəflərindən biri olmasını bir daha təsdiqləyir. Artıq görülmüş işlər nəticəsində hər bir bölgədə, hətta hər kənddə quruculuq və abadlıq işlərinin böyük vüsət alması, modern standartlara cavab verən müasir infrastrukturun yaradılması, yeni istehsal müəssisələrinin açılması ərazi vergilər idarələri üzrə büdcə daxilolmalarında ilbəil artım tendensiyasına öz müsbət təsirini göstərmişdir. Belə ki, cari ilin 5 ayı ərzində ərazi vergilər idarələri tərəfindən ölkənin regionları üzrə müəyyən olunmuş vergi daxilolmalarında proqnozun tam icra edilməsi üçün zəruri tədbirlər həyata keçirilmiş, qarşıya qoyulmuş proqnoz-tapşırığının icrasına 112,1% əməl edilməklə 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 13,2% çox vergi yığılması təmin edilib. ƏVİ-lər üzrə daxilolmalar ümumi vergi daxilolmalarının 7,3%-ni, qeyri-neft-qaz sektoru üzrə daxilolmaların isə 13,8%-ni təşkil etmişdir. Məlumat üçün bildirmək istərdim ki, Dövlət proqramlarının icrasına başlanılana qədər vergi daxilolmalarında bu rəqəm cəmi 5,5% təşkil edirdi.

***- Cari ilin 5 ayı ərzində vergi daxilolmalarının vəziyyəti barədə məlumat verərdiniz...***

«Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 19 dekabr tarixli fərmanı ilə müəyyən edilmiş proqnoz tapşırıqlarının tam icra edilməsi ilə bağlı Vergilər Nazirliyi tərəfindən cari ilin əvvəlindən aparılan məqsədyönlü işlər öz müsbət nəticəsini verməkdədir.

- Cari ilin 5 ayı ərzində vergi daxilolmalarında ahəngdarlıq müşahidə olunmuş və Vergilər Nazirliyinin xətti ilə büdcəyə 2577,1 milyon manat həcmində vəsait səfərbər edilmişdir ki, bu da proqnozun 118,1% icrası, eyni zamanda 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 324,3 milyon manat (14,4%) artıq vəsait deməkdir. İqtisadi risklərin azaldılması məqsədilə iqtisadiyyatda diversifikasiya siyasətinin səmərəliliyi nəticəsində neft-qaz sektoru ilə yanaşı, qeyri-neft-qaz sektorunun inkişafı sahəsində aparılan məqsədyönlü işlər nəticəsində cari ilin 5 ayı ərzində bu sektor üzrə vergi daxilolmaları 1 milyard 354,3 milyon manat təşkil etmişdir ki, bu da proqnozun 107,1% icrası, eyni zamanda 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 162,4 milyon manat (13,6%) artıq vəsait deməkdir.

**Arzu İBRAHİMOVA**

# Vergi ödəyicilərinin hüquqlarının qorunması diqqət mərkəzindədir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkədə «İnsan hüquqları günü» kimi qeyd olunur. Sərəncamın icrası ilə bağlı hər il may ayının 18-dən iyun ayının 18-dək «İnsan hüquqları aylığı» keçirilir.***

Dövlət başçısının 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı», eləcə də 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında insan hüquqları sahəsində Milli Fəaliyyət Proqramı» sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində hüquqi islahatların ardıcıl şəkildə həyata keçirilməsinə yaxşı imkan yaratmışdır. Hər iki proqramın icrası məqsədilə, digər dövlət strukturları ilə yanaşı, Vergilər Nazirliyi tərəfindən də zəruri tədbirlər həyata keçirilir. Bu istiqamətdə mühüm addımlardan biri də vergi ödəyicilərinin qanunla müəyyən olunmuş hüquq və mənafeyinin qorunması məqsədilə Vergi Apelyasiya Şurasının yaradılmasıdır. Şuranın yaradılmasında məqsəd vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) vergi ödəyicilərinin şikayətlərinə (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) məhkəmədənkənar (məhkəməyə qədər) baxılmasıdır.

Vergi Məcəlləsinin 62-ci maddəsində vergi ödəyicisinin vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) və (və ya) məhkəməyə şikayət etmək hüququ təsbit edilmişdir. Hər bir vergi ödəyicisi vergi qanunvericiliyinin tətbiqi ilə bağlı vergi orqanlarının qəbul edilmiş qərarları və ya verilmiş cavabları ilə razılaşmadıqda, məhkəmədən əvvəl Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurasına müraciət edə bilər. Şikayətlərin və ya mübahisələrin məhkəmədənkənar, Vergi Apelyasiya Şurasında baxılmasının bir sıra üstünlükləri var. Bu halda şikayətçinin ərizəsinə baxılması proseduru və forması sadələşir, vergi ödəyicisi məhkəmə xərclərindən azad olur. Eyni zamanda, Vergi Apelyasiya Şurası qanunla müəyyən olunmuş zaman çərçivəsində vergi ödəyicisinin şikayəti ilə bağlı qərar qəbul edir.

Vergi ödəyicisi səyyar vergi yoxlamaları zamanı tərtib edilmiş aktların müddəaları ilə razılaşmadıqda; kameral vergi yoxlaması zamanı vergilər düzgün hesablanmadıqda; vergi borclarının alınması zamanı qanunazidd hərəkətlərə yol verildikdə; vergi uçotuna alınma və uçotdan çıxarılma proseduru pozulduqda; vergi qanunvericiliyinin tətbiqi ilə bağlı digər şikayətlər üzrə Vergi Apelyasiya Şurasına şikayətlə müraciət edə bilər. Şikayət vergi ödəyicisi tərəfindən şəxsən və ya poçt vasitəsilə təqdim oluna, habelə Vergilər Nazirliyinin internet səhifəsində (www.taxes.gov.az) yaradılmış xüsusi bölmə vasitəsilə elektron formada göndərilə bilər.

Vergilər Nazirliyinə daxil olan şikayət dərhal icraya qəbul edilir və qısa müddətdə baxılaraq həll olunur. Bununla yanaşı, tərəflərin məhkəməyə müraciət etmək hüququ saxlanılır. Vergilər Nazirliyində digər ərizə və şikayətlərə də operativ qaydada baxılır. Bu məqsədlə nazirliyin internet səhifəsində «Video qəbul» bölməsi də yaradılmışdır. Hər bir vergi ödəyicisi bu bölməyə daxil olmaqla nazirliyin məsul vəzifəli şəxsləri ilə birbaşa video əlaqə yarada bilər.

«İnsan hüquqları aylığı» çərçivəsində hər il Vergilər Nazirliyinin aidiyyəti strukturları vergi ödəyiciləri ilə görüşlər təşkil edirlər. Bu görüşlərdə vergi ödəyicilərinin Azərbaycan Respublikası Konstitusiyası, Vergi Məcəlləsi və digər normativ hüquqi aktlarda təsbit olunmuş hüquqları, o cümlədən sahibkarların hüquqlarının müdafiəsi, vergi qanunvericiliyinin izahı və tətbiq olunan yeniliklər barədə məlumatlar verilir.

**S.MUSTAFAYEV**



Akif Musayev
Azərbaycan Respublikası Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi

## Rakurs

### Mikroiqtisadi səviyyədə vergi siyasəti

Qeyri-diskriminasiya xarakterli vergi siyasətinin həyata keçirilməsi bir tərəfdən makroiqtisadi sabitliyin təmin edilməsi məqsədi daşıyırsa, digər tərəfdən də mikroiqtisadi səviyyədə fəaliyyət göstərən müxtəlif sahibkarlıq subyektlərinin fəaliyyətinin aktivliyinin stimullaşdırılmasına şərait yaradır. Qeyri-diskriminasiya xarakterli vergi siyasəti makroiqtisadi səviyyədə vergi yükünün formalaşmasına, mikroiqtisadi səviyyədə isə müəssisələrin iqtisadi göstəricilərinə vergilərin təsir dərəcəsini ifadə edir.

Mikroiqtisadi səviyyədə vergilər sahibkarlıq subyektlərinin fəaliyyətinə, onların iradələrindən asılı olmayaraq, kənar amil kimi təsir edir. Ona görə də mikroiqtisadi səviyyədə vergi siyasətinin əsas məqsədi həm sahibkarlıq subyektlərinə vergi təzyiqini azaltmaq və sahibkarlıq fəaliyyətini genişləndirmələri üçün zəruri olan dövriyyə vəsaitlərinin çox hissəsinin onların öz sərəncamlarında qalmasını təmin etmək, həm də sahibkarlıq subyektlərinin öz öhdəliklərini yerinə yetirmələri üçün maksimum münbit mühit yaratmaqdır.

Makro səviyyədəki iqtisadiyyatın vergi yükündən fərqli olaraq burada sahibkarlıq subyektlərinə vergi təzyiqi onların mənfəətində faizlə ümumi vergi dərəcəsi şəklində müəyyən edilir. Bu halda fərz edilir ki, həmin dərəcə mənfəət, ƏDV, sosial sığorta ayırmaları, əmlak, torpaq və yol vergilərini əvəz edir.

*Vergi siyasətinin məqsədlərindən biri də öhdəliyin yerinə yetirilməsi üçün zaman və maliyyə resurslarının az sərf olunmasıdır. Burada sahibkarlıq subyektlərinin qalan fəaliyyəti (istehsal siyasətinin seçilməsi, iş və xidmət fəaliyyətinin həyata keçirilmə mexanizminin tətbiqi) sərbəstdir. Ona görə də elə vergitutma mexanizmi seçilməlidir ki, optimal strategiya təmin edilsin. Bunun üçün birinci zəruri şərt sabit vergi dərəcəsi mexanizmidir.*

Ən sadə vergi mexanizmlərindən biri sabit vergi dərəcələrinə əsaslanan mexanizmdir. Bu vergi mexanizmlərinə əsasən, istehsalçının sərəncamında qalan gəlir onun iqtisadi fəaliyyətindən birbaşa asılı olur. Bu halda istehsalçı sərəncamda qalan mənfəəti artırmaq məqsədilə xərcləri azaltmağa, gəliri isə artırmağa çalışır. Yəni istehsalçı ucuz qiymətə istehsal edib baha qiymətə satmağa çalışır. Bu zaman «ucuz-baha» prinsipi fəaliyyət göstərir. Məhsulun baha satılmasının qarşısının alınması üçün müəssisənin rentabelliyinə məhdudiyyət qoyula bilər. Bu halda müəssisə həmin son hədd rentabelliyini keçirsə, ona cərimə sanksiyaları tətbiq edilir və müəssisə son hədd rentabelliyini keçməmək üçün xərclərini artırmalı olur. Xərclərin artması məhsulun keyfiyyətini yüksəltməklə yanaşı, onun bahalaşmasına gətirir və «baha-baha» prinsipi meydana gəlir. Bu vergi mexanizmlərindən hansının daha səmərəli olmasını demək o qədər də asan deyildir. Belə ki, «ucuz-baha» mexanizmində müəssisələr xərclərini azaltmağa çalışır. Bu, bir tərəfdən əməkhaqqı fondunu məhdudlaşdırır və son nəticədə sahibkarlar işçilərin əməkhaqqının artmasında maraqlı olmurlar, digər tərəfdənsə müəssisələrin sərəncamında qalan gəlirləri, pul vəsaitlərini artırmaqla rəqabətqabiliyyətli mühitin zəif olduğu şəraitdə inflyasiya mənbələri yaradır. «Baha-baha» vergi mexanizmi müəssisələrin gəlir və xərcləri arasındakı fərqləri azaldır və son nəticədə əhalinin gəlirlərindəki sosial-iqtisadi diferensiasiyanı aşağı salır. Sosial baxımdan bu vergi mexanizmi qəbul edilən olsa da, iqtisadi baxımdan səmərəsiz olur və şirkətlərin yüksək gəlir əldə etmək motivasiyasını məhdudlaşdırır.

Göründüyü kimi, hər iki vergi mexanizminin müsbət və mənfi cəhətləri var və bunlardan hansının tətbiq edilməsinin məqsədəuyğun olduğunu demək çətindir. Lakin istər sosial, istərsə də iqtisadi baxımdan cəmiyyət üçün ən əlverişli vergi mexanizmi «ucuz- ucuz» prinsipinə əsaslanan mexanizmdir. Bu vergi mexanizmi bir tərəfdən ucuz istehsalı stimullaşdırmaqla müəssisələrin xərclərini azaldır, digər tərəfdən əhalinin alıcılıq qabiliyyəti nəzərə alınmaqla istehlak qabiliyyətli tələbi artırır. Lakin bu vergi mexanizminin tətbiqini rentabelliyin son hədd meylinin sabit yox, dəyişən olduğu halda həyata keçirmək mümkündür. Lakin bu zaman vergi mexanizmlərinin texnologiyaları çətinləşir, bəzi hallarda isə onu həyata keçirmək mümkün olmur.

Göründüyü kimi, vergi mexanizmlərini dəyişdirməklə müxtəlif tipli inkişaf modellərini stimullaşdırmaq mümkündür.

# Tədris Mərkəzində treninq

***İyun ayının 7-8-də Vergilər Nazirliyinin Tədris Mərkəzində «Yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi» mövzusunda treninq keçilmişdir. Treninqdə Bakı Şəhər Vergilər Departamentinin və ərazi vergilər idarələrinin təlimçiləri iştirak etmişlər.***

Tədbir iştirakçılarına Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı»na və Vergilər Nazirliyinin əmri ilə təsdiq edilmiş «Yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi sahəsində bələdiyyələrə metodiki kömək göstərilməsinə dair 2011-2013-cü illər üçün Tədbirlər Planı»na uyğun olaraq vergi orqanları əməkdaşlarının təlimçiləri üçün keçilən treninqin zəruriliyi izah edilmişdir.

Treninq çərçivəsində fiziki şəxslərin torpaq və əmlak vergisinin hesablanması və ödənilməsi, eləcə də torpağa görə verginin ödənilməsinin məqsədi haqqında məlumat verilmişdir. Bundan başqa, yerli vergi və ödənişlərin ödəyiciləri olan fiziki şəxslərin uçotu, bu şəxslər haqqında məlumat bazasının yaradılması, onların uçota alınması haqqında ərizə formasının və şəhadətnamənin tərtib edilməsi, həmçinin yerli büdcənin vergi ödəyicilərinin reyestrinin aparılması qaydaları təlimçilərin nəzərinə çatdırılmışdır.

# Vergi orqanları rəhbərlərinin Bakı görüşü

**_İyunun 8-də Bakıda MDB üzvü olan dövlətlərin vergi xidməti rəhbərlərinin Koordinasiya Şurasının 19-cu iclası keçirilmişdir_**

*Tədbir iştirakçıları Fəxri xiyabanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Şəhidlər xiyabanına gələrək şəhidlərimizin xatirəsini anmışlar. MDB üzvü olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının 19-cu iclasında Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Ukrayna, həmçinin müşahidəçi qismində MDB-yə üzv olmayan Latviya, Litva və Cənubi Koreyanın vergi orqanlarının rəhbər vəzifəli şəxsləri və MDB İcraiyyə Komitəsinin səlahiyyətli nümayəndələri iştirak etmişlər.*



Qeyd edək ki, hazırda Əlaqələndirmə Şurasına Ukrayna sədrlik edir. 2012-2013-cü illərdə bu vəzifəni Azərbaycanın Vergilər Nazirliyi yerinə yetirəcək. MDB üzvü olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının sədri, Ukrayna Dövlət Vergi Xidmətinin rəhbəri Aleksandr Klimenko qurumun son bir il ərzindəki fəaliyyəti haqda məlumat vermiş, əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulamışdır.

Azərbaycan Respublikasının vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov iclas iştirakçılarını salamlayaraq, bu tədbirin ölkəmizdə artıq 3-cü dəfə keçirilməsindən məmnunluğunu ifadə etmişdir. Nazir müavini bu görüşün tərəflər arasında əlaqələrin, tədbirin gündəliyi çərçivəsində qəbul olunmuş qərarların isə onlar arasında əməkdaşlığın inkişafına güclü təkan verəcəyinə inandığını bildirmişdir. Azərbaycanın vergi sistemində aparılan islahatlardan söz açan S.Ələkbərov bildirmişdir ki, ölkəmizdə dövlət müstəqilliyinin bərpasından keçən 20 il ərzində planlı iqtisadiyyatdan bazar münasibətlərinə keçidlə bağlı çox uğurlu layihələr həyata keçirilmişdir. Artıq özəl sektorun ümumi daxili məhsulda payı 80%-i ötmüşdür. 1995-ci ildən indiyədək Azərbaycan iqtisadiyyatına 120 milyard dollardan, o cümlədən neft sektoruna 50 milyard dollardan artıq investisiya qoyulmuşdur.

Sahib Ələkbərov son 8 ildə ümumi daxili məhsulun və sənaye istehsalının 3 dəfə artdığını, yoxsulluq səviyyəsinin 49%-dən 7,6%-ə endiyini, bir milyondan çox yeni iş yerinin açıldığını diqqətə çatdırmışdır. Bildirmişdir ki, Azərbaycanda reallaşdırılan layihələr ölkə hüdudlarından kənarda da böyük maraqla qarşılanır, beynəlxalq maliyyə institutları ölkəmizdə görülən işləri dəstəkləyirlər. Son illər ərzində «Standard & Poor's», «Fitch və Moody's» kimi institutlar dəfələrlə ölkəmizin maliyyə reytinqini yüksək qiymətləndirmişlər.

Beynəlxlalq əməkdaşlıq məsələlərinə daim önəm verildiyini bildirən nazir müavini Azərbaycanın bir çox beynəlxalq institutlar, o cümlədən MDB-nin müxtəlif strukturlarında digər üzv dövlətlərlə fəal əməkdaşlıq etdiyini diqqətə çatdırmışdır.

Ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı istiqamətində görülən işlərə toxunan S.Ələkbərov e-hökumətin tətbiqi sahəsində əldə olunan uğurlar barədə də məlumat verərək qeyd etmişdir ki, növbəti 10 ildə hökumət qarşısında qoyulmuş başlıca vəzifə son 8 ildə 3 dəfə artmış ümumi daxili məhsulun daha 2 dəfə artırılmasına nail olmaqdır.

İclas zamanı iştirakçı dövlətlərin vergi orqanlarının fəaliyyətlərinin əsas iqtisadi göstəriciləri, kiçik sahibkarlıq subyektləri tərəfindən xüsusi vergi rejimlərinin tətbiqi, əmlak vergisinin inzibatçılıq prosedurlarının sadələşdirilməsi və digər məsələlər müzakirə edilmişdir.

Rusiya Federasiyası Federal Vergi Xidmətinin nümayəndəsi Svetlana Lisimenko MDB ölkələrində fiziki şəxslərdən tutulan gəlir vergisi barədə danışaraq qeyd etmişdir ki, müxtəlif ölkələrdə vergilərin dərəcələri fərqli olsa da, bu sahədə vergi ödənişlərinə ümumi nəzarət formaları mövcuddur. Vergilərin sayına, strukturuna, yığılma üsullarına, dərəcələrinə və digər əlamətlərinə görə üzv ölkələrin vergi sistemləri bir-birindən fərqlənir. Buna baxmayaraq, bütün vergi sistemlərinə xas olan ümumi cəhətlər var: dövlətin vergi gəlirlərinin artırılması üçün yollar axtarılması və vergitutmanın əsas prinsiplərinin tələblərinə cavab verən optimal vergi sisteminin yaradılmasına cəhd edilməsi. Gəlir vergisi üzrə bəyannamələrin təqdim edilməsi, təqdimolunma müddəti, bu sahədə cərimə və sanksiyalar, vergidən yayınan şəxslərin müəyyən edilməsi və digər hallar təşkilata üzv ölkələrin əksəriyyətində eynidir. Vergi yükü ilə iqtisadi inkişaf arasında balansa nail olunmasından danışan S.Lisimenko vergilər və investisiya mühiti, vergi siyasəti və vergi islahatları üzrə tendensiyalarla bağlı aktual məsələlərə də diqqət yönəltmişdir.

2011-2014-cü illərdə Qazaxıstan Respublikasının vergi administrasiyasının islahatlar layihəsi haqqında məlumat verən Qazaxıstan Maliyyə Nazirliyi yanında Vergi Komitəsinin Beynəlxaq vergiqoyma idarəsinin rəhbəri Aynagül Akişiyeva Dünya Bankının texniki dəstəyi ilə həyata keçirilən tədbirlərin əhəmiyyətini qeyd etmişdir. Onun sözlərinə görə, institusional islahatlar sayəsində Qazaxıstanın vergi sistemində beynəlxalq tələblərə cavab verən müasir idarəetmə infrastrukturu yaradılmış, vergi orqanları ilə biznes qurumları arasında idarəetməni tənzimləyən mexanizmlər müəyyən olunmuşdur. Audit yoxlamalarının effektivliyinin təmin olunması, informasiya-kompüter sistemlərinin tətbiqinin genişləndirilməsi, kameral yoxlamaların yeni forma və metodlarının müəyyən edilməsi, elektron xidmətlərin tətbiqi ilə bağlı mərkəzləşdirilmiş informasiya sisteminin qurulması həyata keçirilən islahatların əsas istiqamətlərini təşkil etmişdir.

Rusiya Federal Vergi Xidmətinin nümayəndələri D.Volvaç və N.Filamofitskaya transfert qiymətlər, vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılması, vergi fırıldaqçılığına və vergilərin ödənilməsindən yayınma hallarına qarşı mübarizənin səmərəliliyi, vergilərin məcburi tutulması və vergi borclarının yaranmasının qarşısının alınması mexanizminin təkmilləşdirilməsi sahəsində mövcud vəziyyət barədə məlumat vermişlər. Qeyd olunmuşdur ki, vergi gəlirlərinin artırılması üçün vergitutma prinsiplərinə cavab verən optimal vergi sisteminin yaradılması dövlətin iqtisadi siyasətində mühüm məsələdir və aktuallıq kəsb edir. Vergi sistemindəki dəyişikliklərin mahiyyəti vergi ödəyicisi üçün anlaşılan olmalıdır.

Müzakirələr zamanı vergi orqanlarında beynəlxalq standartların tətbiqi və müasir tələblərə cavab verən kompüter sisteminin yaradılması sahəsində layihələrin əhəmiyyəti, biznes üçün daha əlverişli mühitin yaradılması, vergi inzibatçılığı sahəsində dövlətlər arasında əməkdaşlıq, iri vergi ödəyiciləri ilə əlaqələrin strukturlaşdırılması ilə bağlı məsələlərə toxunulmuşdur.

Cənubi Koreya Respublikasının Milli Vergi Xidmətinin rəisi Lii Hyundonq «Elektron vergi xidməti: qarşıda duran vəzifələr» mövzusunda təqdimatla çıxış edərək bu ölkənin vergi sistemində tətbiq olunan innovativ yeniliklər barədə geniş məlumat vermişdir. O bildirmişdir ki, həyata keçirilən islahatların başlıca məqsədi vergi ödəyicilərinə xidmətin informasiya-kommunikasiya texnologiyalarının ən son yenilikləri əsasında qurulmasıdır.

Lii Hyundonqun sözlərinə görə, BMT-nin «Elektron inzibatçılığın inkişafı və onlayn idarəetmə» hesabatında Koreya 2010-2012-ci illər üzrə dünya dövlətləri arasında birinci yeri tutmuşdur. O, hazırda ölkədə vergi ödəyicilərinə xidmətlərin yalnız elektron formada aparıldığını və bu təcrübənin MDB ölkələri üçün də faydalı ola biləcəyini qeyd etmişdir.

Müzakirələrdə Azərbaycanın vergi sistemi yüksək qiymətləndirilmiş, respublikamızın həyata keçirdiyi vergi islahatlarının nəticələrinin MDB regionunda uğurlu bir təcrübə kimi qəbul olunduğu qeyd edilmişdir. Azərbaycanda Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiqi, elektron sənəd dövriyyəsi, bəyannamələrin elektron formada təqdim olunması, elektron vergi hesab-fakturalarının tətbiqi, ƏDV inzibatçılığı sahəsində islahatlar iştirakçılar tərəfindən təqdir olunmuşdur. Bir sıra MDB dövlətlərinin vergi administrasiyalarının nümayəndələri ölkəmizin vergi sistemindəki yenilikləri, vergi inzibatçılığı sahəsində son illərdə Azərbaycanın topladığı uğurlu təcrübəni öz ölkələrinin vergi sistemində tətbiq etmək istədiklərini qeyd etmişlər.

## Azərbaycanın vergi sistemində mühüm islahatlar aparılıb



*Rusiya Federasiyası Federal Vergi Xidmətinin rəis müavini Aleksey Overçuk:*

«Hər bir ölkənin vergi sistemində həyata keçirilən mütərəqqi islahatlar digər ölkələrin vergi orqanları üçün də maraqlı görünə bilər, ona görə də hər bir yeni layihə ölkə hüdudlarından kənarda da qəbul olunur və geniş əməkdaşlıq üçün fayda verir. Rusiya Federasiyası beynəlxalq əməkdaşlıq məsələlərinə daim önəm verir və vergi orqanları rəhbərlərinin Koordinasiya Şurasının fəaliyyətində yaxından iştirak edir. Şuranın iclası ölkələr arasında əməkdaşlığın gücləndirilməsi, vergi inzibatçılığı ilə bağlı tədbirlərin səmərəliliyinin artırılması üçün irəliyə doğru növbəti addım hesab oluna bilər. Son illərdə bütün ölkələrin vergi xidmətlərində inkişafı görürük. Əməkdaşlığın dairəsi hər il genişlənir. Bu iclas zamanı bir çox ölkələrin vergi sistemində baş verən dəyişikliklər barədə, o cümlədən Azərbaycanın vergi inzibatçılığının təkmilləşdirilməsinə dair ətraflı məlumat əldə etdik. Azərbaycanda vergi sistemində çox böyük islahatlar həyata keçirilib. Sizin ölkənizdə müasir elektron ödəmələrə böyük üstünlük verilməsi, nağdsız hesablaşmalar sisteminin inkişaf etdirilməsi çox əhəmiyyətlidir. Həmçinin, elektron audit sisteminin tətbiq edilməsi təqdir oluna bilər».

## «MDB dövlətlərinin vergi islahatları Moldova üçün də maraqlıdır»



*Moldova Maliyyə Nazirliyi yanında Baş Vergi Müfəttişliyinin rəisi Nikolaye Platon*

...MDB üzvü olan dövlətlərin vergi xidməti rəhbərlərinin 19-cu iclasının yüksək səviyyədə təşkil olunduğunu qeyd etmiş, tədbirin səmərəli müzakirələrin aparılması, qarşılıqlı maraq doğuran məsələlər ətrafında müəyyən razılaşmaların əldə olunması və informasiya mübadiləsi baxımından əhəmiyyətli olduğunu bildirmişdir: «Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin vergi xidməti rəhbərlərinin Koordinasiya Şurasının 19-cu iclasının yüksək səviyyədə təşkil olunmasına görə Azərbaycan Respublikası Vergilər Nazirliyinə dərin təşəkkürümü bildirirəm. İclasda vergi sisteminin müasirləşdirilməsi və elektronlaşdırılması, yeni texnologiyaların tətbiqi, vergi ödəyicilərinə xidmətin yüksək beynəlxalq standartlara uyğun təşkili kimi aktual məsələlər müzakirə olunmuşdur. Biz postsovet məkanında cərəyan edən iqtisadi prosesləri yaxından izləyirik və MDB dövlətlərinin vergi xidmətlərində aparılan islahatlar Moldova üçün də əhəmiyyətlidir».

Tədbirin qarşılıqlı əməkdaşlığa müsbət təkan verdiyini bildirən Nikolaye Platonun sözlərinə görə, münasibətlərin hazırkı səviyyəsi hər bir ölkənin vergi sistemindəki yeniliklər haqqında operativ informasiyaların alınmasına və təcrübə mübadiləsinə yaxşı imkan yaradır: «Hesab edirəm ki, belə tədbirlər bizə ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq üçün geniş imkanlar açır. Müşahidələrimə görə, bir çox MDB dövlətlərinin vergi xidmətləri fəaliyyətini müasir dövrün tələblərinə uyğunlaşdırmağa çalışır və bu baxımdan, Azərbaycanın həyata keçirdiyi islahatları xüsusi qeyd etmək istərdim. Ölkədə vergi ödəyicilərinə xidmətin yüksək səviyyədə təşkili burada biznesə başlamaq üçün normal mühitin mövcud olduğunu göstərir. Azərbaycanın Vergilər Nazirliyi müasir informasiya texnologiyalarının tətbiqi üzrə ciddi uğurlara imza atmışdır. Açıq demək istərdim ki, ölkənizin vergi sistemində həyata keçirilən islahatlar müsbət təcrübə kimi bizim də marağımıza səbəb olub».

## «Həyata keçirilən uğurlu islahatlar bizim üçün örnəkdir»



*Qazaxıstan Respublikası Maliyyə Nazirliyi yanında Vergi Komitəsinin sədri Anuar Cumadildayev*

...vergilər sahəsində çalışan peşəkar mütəxəssislərin apardıqları səmərəli müzakirələrin yeni innovativ layihələrin meydana gəlməsini stimullaşdırdığını bildirmişdir: «Azərbaycanın büdcə gəlirlərinin formalaşmasında vergi daxilolmalarının həcminin ildən-ilə artması iqtisadiyyatın inkişafının göstəricisi olmaqla yanaşı, həm də vergi orqanlarının işinin düzgün və səmərəli qurulmasının nəticəsidir. Həyata keçirilən iqtisadi layihələr, xüsusən də vergi ödəyiciləri ilə vergi orqanları arasında birbaşa təmasın azaldılmasına imkan verən müasir texnoloji sistemlər bu sahədə işin operativ qurulmasını və səmərəliliyini təmin edir. Bu baxımdan, hesab edirəm ki, ölkənizin iqtisadi inkişafında Vergilər Nazirliyinin mühüm rolu vardır. Azərbaycanın vergi sahəsində həyata keçirdiyi islahatlar - xüsusilə elektron hesab-fakturaların tətbiqi, vergi və rüsumların elektron formada ödənilməsi məsələləri Qazaxıstanın vergi xidməti orqanı üçün də yaxşı örnəkdir. Biz bu yeniliklərin tətbiqində Azərbaycanın təcrübəsindən istifadə etmək niyyətindəyik. İstəyirik ki, azərbaycanlı mütəxəssisləri bu məsələlərlə bağlı Qazaxıstana dəvət edək və müasir sistemlərin tətbiqində onların dəstəyindən bəhrələnək».

## Koreya şirkətləri MDB dövlətlərinin vergi sistemini diqqətlə izləyir



*Cənubi Koreya Respublikasının Milli Vergi Xidmətinin rəhbəri Lii Hyundonq*

...ölkəsinin MDB vergi xidməti orqanlarının iclaslarında müşahidəçi qismində həvəslə iştirak etdiyini və bu geosiyasi arealda tətbiq olunan vergi sistemləri ilə yaxından tanışlıq imkanı qazandıqlarını bildirmişdir: «Hesab edirəm ki, bugünkü iclas ikitərəfli iqtisadi əlaqələri inkişaf etdirmək, biznes gəlirlərinin artımını təmin etmək baxımından çox əhəmiyyətlidir. Son vaxtlar Koreya şirkətlərinin xarici bazarlara, xüsusən də MDB ölkələrinin bazarlarına çıxış imkanları genişlənmişdir. Həmin şirkətlər bu məkanda vergi sistemini diqqətlə izləmədən, öyrənmədən, şübhəsiz ki, səmərəli fəaliyyət göstərə bilməzlər».

Lii Hyundonq Cənubi Koreyanın MDB dövlətləri, o cümlədən Azərbaycanla vergi sahəsində əməkdaşlıqda maraqlı olduğunu da xüsusi qeyd etmişdir: «Bu əməkdaşlığı daha da inkişaf etdirmək üçün müxtəlif ölkələrin vergi xidmətləri orqanları arasında əlaqələri inkişaf etdirmək zəruridir. Hələlik bizim əlaqələrimiz başlanğıc mərhələsindədir. Lakin hesab edirəm ki, belə görüşlər həm də əməkdaşlıq üçün mövcud potensialdan daha səmərəli istifadə imkanı yaradır. Ümidvarıq ki, 2012-2013-cü illərdə MDB vergi xidməti rəhbərlərinin Koordinasiya Şurasına rəhbərlik edəcək Azərbaycan bu istiqamətdə faydalı təşəbbüslər irəli sürəcəkdir».

# «Vergi innovasiyaları sahəsində Azərbaycan Belarusdan xeyli irəlidədir»



*Belarus Respublikasının vergilər və yığım nazirinin birinci müavini Sergey Nalivayko*

...bildirmişdir ki, müsbət ənənə halını almış belə görüşlər, ilk növbədə, vergi xidməti sahəsində innovativ layihələrin öyrənilməsi və tətbiqinə, vergi inzibatçılığı sahəsində işin müasir tələblər səviyyəsində qurulmasına, sistemin elektronlaşdırılmasına imkan yaradır: «Aktual səciyyə daşıyan bu iclasda hər bir ölkənin maraq dairəsində olan vergi məsələləri geniş müzakirə olundu.

Ümumiyyətlə, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri ənənə halını almış iclasdan-iclasa yüksəlir ki, bu da obyektiv reallıqdan irəli gələn zərurətdir. Müasir dövrdə dünya ölkələrinin vergi sahəsində həyata keçirdikləri islahatları öyrənmədən, yenilikləri tətbiq etmədən vergi inzibatçılığını səmərəli qurmaq və sahibkarlığ subyektlərinə xidmətin səviyyəsini yüksəltmək mümkün deyildir. Müasir iqtisadi qloballaşma şəraitində vergi xidmətləri sahəsində qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmək və bu sahədə işi müasir texnologiyalar əsasında qurmaq xüsusilə vacibdir. Yalnız bu prinsiplərə riayət etməklə nümunəvi vergi ödəyicilərinə fəaliyyət üçün əlverişli mühit yaratmaq mümkündür».

Sergey Nalivayko onu da əlavə etmişdir ki, belə tədbirlərin təşkili vergi mühitinin təkmilləşdirilməsi sahəsində sağlam rəqabətin formalaşmasını təmin edir. Onun fikrincə, hazırda MDB-yə üzv olan ölkələrin vergi xidmətləri öz işini qabaqcıl təcrübəyə uyğunlaşdırmağa çalışır: «Bu gün söhbət həm də MDB vergi orqanları arasında ümumi prinsip və baxışların, modern standartların formalaşdırılması yolunda səylərin birləşdirilməsindən gedir. Strateji məqsəd biznesin inkişafı və investisiyaların cəlb edilməsi baxımından daha əlverişli mühitin formalaşdırılmasıdır...

Müasir dövrdə kiçik və orta sahibkarlığı inkişaf etdirmədən vergitutma bazasını genişləndirmək, xüsusən də qeyri-neft sektorundan daxilolmaları artırmaq mümkün deyildir. Bu baxımdan, həm Azərbaycanda, həm də Belarusda vəziyyətin müsbət olduğunu deyə bilərəm. Amma etiraf etməliyəm ki, vergi sisteminin modern tələblər səviyyəsində qurulması, vergi innovasiyaları baxımından Azərbaycan Belarusdan xeyli irəlidədir. Biz Azərbaycana çatmaq üçün müəyyən məsələləri sizdən öyrənməliyik. Bunun üçün yaxın gələcəkdə Belarusun vergi sahəsində çalışan mütəxəssislərini Azərbaycana işgüzar səfərə ezam etmək fikrindəyik».

# Mətbuat üçün brifinq

MDB-yə üzv dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının 19-cu iclasında Ukraynanın vergi xidmətinin rəhbəri Aleksandr Klimenko və Azərbaycanın vergilər nazirinin müavini Sahib Ələkbərov mətbuat üçün brifinq keçirmişlər.

Brifinqdə jurnalistlərin suallarını cavablandıran Aleksandr Klimenko qeyd etmişdir ki, vergi sistemində təkmilləşmələrin davamlı olaraq aparılması zəruridir: «MDB məkanında vergilər sahəsində qanunvericilik sisteminin vahid şəklə salınması vacibdir. Bu, mürəkkəb və zəhmət tələb edən prosesdir. Proses gedir, lakin onun başa çatdırılması üçün vaxt lazımdır. Sənədlərin qüvvəyə minməsindən sonra iş proseslərində sadələşmə dərhal hiss ediləcək. Bu gün iclasda müzakirə olunan əsas məsələlər: xidmət, elektron hesabatlılıq və transfert qiymətləndirməsini müzakirə etdik. Hər şeydən əvvəl, bura bizim fikir mübadiləsi apardığımız, il ərzində hər bir vergi xidmətində tətbiq olunan innovasiyaları bölüşdüyümüz, birgə qərar tələb edən problemləri gördüyümüz meydandır. Çoxlu çağırışların olduğu müasir dünyada heç bir vergi xidməti ayrıca işləyə bilməz. Biz artıq anlayırıq ki, transmilli kapital, transmilli şirkətlər vergi xidmətlərində daha dəqiq, birgə və operativ əməkdaşlıq, xidmətlərimiz qarşısında duran başlıca vəzifələrin yerinə yetirilməsi üçün məlumat mübadiləsi tələb edir. Ən mühüm tədbirlərimizdən biri MDB ölkələrinin vergi xidmətləri üzrə fəaliyyat planını həyata keçirməkdir.

Müasir dünyada heç bir vergi xidməti təkbaşına - digər qurumlarla əlaqəsi olmadan işləyə bilməz. Hazırda başlıca vəzifələrdən biri - vergi orqanlarının qarşısında duran əsas məsələ vergi ödəyicilərinə yüksək səviyyəli xidmətin təşkili və bunun nəticəsi olaraq büdcə yığımlarını təmin etməkdir.

Azərbaycanın vergilər nazirinin müavini Sahib Ələkbərov: «İclasa maraq olduqca böyükdür. Tədbirdə MDB-yə üzv ölkələrin vergi xidmətləri rəhbərlərindən başqa, Koreya, Latviya, Litva vergi orqanlarının rəhbərləri də müşahidəçi qismində iştirak edirlər. Gündəlikdəki əsas məsələlər vergi orqanları arasında qarşılıqlı təcrübə mübadiləsinin gücləndirilməsi və əməkdaşlığın yeni sahələrinin müəyyən olunması ilə bağlıdır. Koordinasiya Şurasının 18-ci iclasından ötən müddət ərzində mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri - vergi orqanlarının qanunvericiliyində baş vermiş dəyişikliklər də gündəlikdə duran əsas məsələlərdəndir.

Kiçik sahibkarların sadələşdirilmiş vergiyə cəlb edilməsinin daha da genişləndirilməsi, əlverişli vergi mühitinin yaradılması, fiziki şəxslərin gəlirlərinin gizlədilməsi cəhdlərinin qarşısının alınması ilə bağlı məsələlər də müzakirə mövzusudur. Aparılan müzakirlər və təklif olunan fikirlər qarşıdakı dövrdə MDB-yə üzv ölkələrin vergi xidməti orqanlarının birgə fəaliyyətinin daha da gücləndirilməsi üçün xüsusi əhəmiyyət kəsb edəcək.

Vergilərin könüllü ödənilməsinin miqyasının genişləndirilməsi bu gün vergi sistemində ən mühüm məsələlərdən biri hesab olunur. Azərbaycan hökuməti elektron xidmətlərin tətbiqinin genişləndirilməsi və e-xidmətlərlə bağlı davamlı işlər həyata keçirir. Ölkəmizdə elektron hökumətin yaradılması istiqamətində ciddi addımlar atılır və Vergilər Nazirliyi bu sahədə aparıcı mövqedə duran dövlət qurumudur. Son bir ildə MDB-nin vergi orqanlarının əldə etdiyi qabaqcıl təcrübə bütün üzv ölkələr tərəfindən maraqla qarşılanır. Eyni zamanda, iştirakçı ölkələrin vergi orqanları Azərbaycanın bu sahədə müsbət təcrübəsini yüksək qiymətləndirirlər. Respublikamızın vergi sistemində elektron xidmətlərin spektrinin genişləndirilməsi, vergilərin toplanması səviyyəsinin artımı, ƏDV depozit hesabının açılması, vergi inzibatçılığı və digər sahələrdə qazandığımız təcrübə bir çox MDB ölkələri tərəfindən ən yaxşı təcrübə hesab olunur. Konkret olaraq Qırğızıstan, Moldova, Qazaxıstan ölkəmizə müraciət edərək vergi sistemində son bir ildə həyata keçirilən islahatlarla daha dərindən tanış olmaq istədiklərini bildirmişlər.

Azərbaycan MDB ölkələri arasında vergi inzibatçılığının təkmilləşdirilməsinin vəziyyətinə görə öncül ölkələrdən hesab olunur. Bu gün Ukrayna, Rusiya Federasiyası, Qazaxıstan kimi ölkələr vergi inzibatçılığı ilə bağlı bir sıra islahatlar həyata keçirmək istəyirlər, amma Azərbaycan bu tədbirləri 2000-ci illərin ortalarında həyata keçirməyə nail olub».

# «Vergilər Nazirliyinin elektron xidmətlər sahəsində tətbiq etdiyi layihələr mühüm əhəmiyyət daşıyır»



*Litva Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyinin rəis müavini Vitautas Vitkeviçus:*

«Bu gün dünyada iqtisadiyyatın yeni tələbləri formalaşır və bu meyarlar vergi administrasiyalarının fəaliyyətində dəyişiklikləri zəruri edir. Hazırkı iqtisadi çətinliklər dövründə bütün dünyanın vergi administrasiyalarının beynəlxalq vergi öhdəliklərinin yerinə yetirilməsinin təkmilləşdirilməsi və xarici öhdəliklərin yerinə yetirilməsi risklərinin idarə olunması üzrə ən yaxşı təcrübənin mübadiləsinə xüsusi diqqət yetirilməsi çox əhəmiyyətlidir.

Vergi sistemində islahatlar sərhəd tanımır: hər bir inkişaf etmiş ölkənin müasir vergi sistemini qiymətləndirmək, tətbiq etmək lazımdır. Bizim ölkə MDB üzvü olmasa da, bu təşkilatın iqtisadi proqramlarını müsbət dəyərləndiririk və əməkdaşlıq üçün səyləri qəbul edərək birgə faydalı əlaqələrə üstünlük veririk. Vergi sistemində mühüm layihələr, yeniliklər varsa, Litva hökuməti bu tədbirlərin əhəmiyyətini nəzərə alaraq istənilən ölkənin təcrübəsini öyrənməyi zəruri hesab edir. Vergi ilə bağlı suallar həmişə meydana çıxır, bunu heç bir ölkə təklikdə həll edə bilməz, elə məsələlər var ki, onu geniş şəkildə müzakirə etmək daha səmərəli nəticələr verir. Hesab edirəm ki, hər bir ölkənin vergi xidmətinin qarşısında duran əsas məsələ vergi inzibatçılığını daha da yaxşılaşdırmaq məqsədilə daim təşkilati və texnoloji baxımdan təkmilləşmək, vergi nəzarətini gücləndirmək, vergi ödəyicilərinə daha mükəmməl xidmət sistemi yaratmaq və onu inkişaf etdirməkdən ibarətdir. Bu baxımdan, MDB ölkələrinin vergi orqanları rəhbərlərinin son illərdə davamlı şəkildə keçirilən iclasları yüksək qiymətləndirmək olar. Vergi sistemini yeni inkişaf pilləsinə çatdırmaq üçün bu cür tədbirləri davam etdirmək lazımdır».

Azərbaycanın vergi sistemində aparılan islahatları təqdir edən Vitautas Vitkeviçus qeyd etmişdir ki, respublikamızda modern bir struktura çevrilən müasir vergi xidməti mövcuddur. «Vergilər Nazirliyinin elektron xidmətlər sahəsində tətbiq etdiyi layihələri yüksək qiymətləndirirəm. Müasir texnologiyaların tətbiqi, vergi sisteminin müasirləşdirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində davam edən islahatların mühüm əhəmiyyəti var. Mən Azərbaycanın e-xidmətlər sahəsində görülən işlər barədə geniş məlumat əldə etdim. Vergilərin real vaxt rejimində elektron formada ödənilməsinin təmin edilməsi imkanının yaradılması müsbət hadisə hesab edilməlidir. Bunlar olduqca mühüm məsələlərdir və dünyanın aparıcı ölkələrinin təcrübəsinə əsaslanır. Bu cür tədbirlərin davam etdirilməsi, xüsusilə də yaxın perspektivdə nəzərdə tutulan vergi və rüsumların internet vasitəsilə ödənilməsinin genişləndirilməsi Azərbaycanda ən modern vergi sisteminin qurulmasının göstəricisidir».

# «Qarşılıqlı faydalı əlaqələr yüksək səviyyədədir»



*Latviya Dövlət Vergi Xidmətinin baş direktoru Neliya Yezdakova*

...MDB vergi xidməti orqanlarının müasir iş təcrübəsinin onun ölkəsi üçün müstəsna əhəmiyyətini xüsusi vurğulayaraq demişdir ki, Bakı toplantısında müzakirəyə çıxarılan məsələlər inkişaf etmiş ölkələrin vergi xidmətlərinin də maraq dairəsindədir. Onun qənaətincə, iqtisadi inteqrasiya proseslərinin geniş vüsət aldığı qloballaşma dövründə vergi inzibatçılığı və vergi ödəyicilərinə xidmətin təşkili, vergi qanunvericiliyinin müasirləşdirilməsi kimi məsələlər bütün dövlətlər üçün eyni dərəcədə aktualdır: «Fikrimcə, iclasda vergi sahəsində çox vacib məsələlər müzakirə mövzusu oldu. Bu görüş həm ölkələrin bir-birinin təcrübəsi ilə yaxından tanışlığı, həm də informasiya mübadiləsi baxımından əhəmiyyətlidir. Latviya MDB üzvü olmasa da, biz bu iclasda müşahidəçi qismində iştirak edirik, çünki MDB məkanında aparılan vergi islahatları bizim üçün də maraqlıdır. Bununla biz vergi islahatları sahəsində əldə etdiyimiz nəticələri qarşılıqlı olaraq müzakirə edə və səmərəli mübadiləyə nail ola bilərik».

Neliya Yezdakova Azərbaycan ilə Latviyanın IOTA - Avropadaxili Vergi Administrasiyaları Təşkilatı çərçivəsində sıx əməkdaşlıq etdiyini, ölkələrimizin vergi xidmətləri arasında gələcək əməkdaşlığa dair saziş imzalandığını vurğulayaraq demişdir: «Bu saziş bizə əməkdaşlıq üçün daha geniş imkanlar açır».

# «Azərbaycanın vergi sahəsində qazandığı təcrübədən istifadə edəcəyik»



*Qırğız Respublikası Hökuməti yanında Dövlət Vergi Xidmətinin rəisi Kabıl Abdalıyev:*

«Azərbaycanda həyata keçirilən vergi siyasəti çox mühüm uğurların əldə olunmasına səbəb olmuşdur. MDB ölkələrinin vergi inzibatçılığı sahəsində gördüyü işlərlə tanış olduqda Azərbaycanın çox yüksək inkişaf yolu keçdiyini görmək olar. Qırğızıstan üçün Azərbaycanın topladığı vergi təcrübəsi böyük əhəmiyyətə malikdir. Hazırda bizim vergi xidməti qarşısında duran əsas başlıca məsələlər vergi inzibatçılığının təkmilləşdirilməsində ən mütərrəqi layihələri tətbiq etməkdən ibarətdir. Son illər Azərbaycanın vergi inzibatçılığı çərçivəsində əldə etdiyi uğurlar, elektron xidmətlərin tətbiq olunması Qırğızıstanın vergi orqanında böyük maraq doğurub. Biz Azərbaycanın müasir vergi sisteminin işi ilə çox yaxından tanış olduq və bir sıra sahələr üzrə ətraflı, geniş fikir mübadiləsi apardıq. Elektron xidmətlər sahəsində atılan addımların miqyası xeyli genişdir. Xüsusilə də Vergilər Nazirliyinin internet resurslarından istifadə imkanları ən yaxşı şəkildə qurulub. Vergi ödəyicilərinin e-xidmətlərdən istifadəsi üçün lazım olan bütün imkanlar yaradılıb. Bütün bu tədbirlərin vergilərin toplanması və şəffaflıq səviyyəsinin yüksəlməsində böyük əhəmiyyəti vardır. Biz öz vergi sistemimizin işini təkmilləşdirmək üçün Azərbaycanın bu sahədə qazandığı təcrübədən istifadə etmək niyyətindəyik. Bundan başqa, vergi inzibatçılığı sisteminin proqram təminatının işlənib hazırlanması və quraşdırılması, informasiya texnologiyaları sahəsində digər texniki məsələlərin həlli sahəsində Azərbaycan şirkətlərinin köməyindən istifadə olunacaq».

# «Azərbaycanın vergi islahatlarını Tacikistanda tətbiq etmək niyyətindəyik»



*Tacikistan Respublikası Hökuməti yanında Vergilər Komitəsi sədrinin birinci müavini Ayub Sloliyev*

...bildirmişdir ki, xarici investisiyalar üçün «açıq qapı» siyasəti yürüdən Tacikistan dövləti vergi sistemini davamlı şəkildə müasirləşdirmək, yeniliklərdən vaxtında xəbər tutmaq üçün MDB dövlətlərinin təcrübəsi ilə yaxından tanış olur: «Belə görüşlər, ilk növbədə, informasiya texnologiyalarının tətbiqi sahəsində təcrübə mübadiləsini genişləndirmək üçün yaxşı fürsətdir. Son illərdə Azərbaycan sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, vergi ödəyicilərinə elektron xidmətlərin göstərilməsi, vergi və rüsumların elektron formada yığılması sahəsində böyük uğurlara imza atmışdır».

Ayub Stoliyevin sözlərinə görə, Tacikistan hökuməti MDB ölkələri arasında daha çox Azərbaycanın vergi təcrübəsinin öyrənilməsinə üstünlük verir: «Tacikistan Sahibkarlar Assosiasiyasının nümayəndə heyəti Azərbaycanda sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı sahəsində aparılan islahatlarla tanışlıq, bu sahədə təcrübəni öyrənmək məqsədi ilə son illərdə bir neçə dəfə Bakıya səfər etmişdir. Nümayəndə heyətinin üzvləri kommersiya hüquqi şəxslərin «bir pəncərə» prinsipi üzrə dövlət qeydiyyatı prosesi ilə tanış olmaq üçün Bakı Şəhər Vergilər Departamentinin kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində olmuşlar. Nümayəndə heyəti idarənin fəaliyyətini, kommersiya hüquqi şəxslərin «bir pəncərə» prinsipi ilə dövlət qeydiyyatına alınması üçün yaradılan şəraiti, eləcə də kommersiya hüquqi şəxslərin qeydiyyat prosesini müşahidə etmiş, Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi ilə tanış olmuşdur. Biz bu yenilikləri Tacikistanda da geniş şəkildə tətbiq etmək niyyətindəyik».

***Materialları hazırladılar: Elbrus CƏFƏRLİ, Samir MUSTAFAYEV***



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Baxış bucağı

## Audit xidmətlərinin dəyərinin ödənilməsi

Təsərrüfat subyektlərinin rəhbərləri cəlb etdiyi auditorla müqavilə bağlamazdan əvvəl Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının qərarı ilə tanış ola bilər (qərar barədə auditora müraciət etmək olar). Təsərrüfat subyektlərinin rəhbərləri bilməlidirlər ki, müəssisə barədə aşağıda göstərilən məlumatlar auditor xidmətinin dəyərini əhəmiyyətli dərəcədə dəyişir:

- Müəssisənin illik dövriyyəsi. Mal satışının, görülən işlərin və göstərilən xidmətlərin ƏDV-siz dəyəri və vergi mükəlləfiyyəti qiymətlərə təsir edən əsas amildir. Bəzən dövriyyənin az olmasına baxmayaraq müəssisənin vergi yükü artıq (ƏDV, mənfəət, əmlak vergisi ödəyicisi) olduqda, qiymətlər artırıla bilər.

- Müəssisənin fəaliyyət növü. Müəssisənin fəaliyyətinin çoxluğu və dairəsi, filiallarının və ya nümayəndəliyinin olması, anbarların sayı əməliyyatların həcminə və auditin aparılması vaxtına təsir edir.

- İşçilərin sayı. İşçilərin sayının çox olması müəssisədə çoxçeşidli, qarışıq və yüksək nəzarəedici xassəyə malik əməliyyatların baş verməsindən xəbər verir. Bu isə audit zamanı müəyyən araşdırma səviyyəsi tələb edir.

- Sənəd dövriyyəsi. Müəssisənin dövriyyəsindən asılı olmayaraq müştərilərdən daxil olan və sifarişçilərə təqdim olunan qaimə-fakturalar, hesab-fakturalar və təhvil-təslim aktlarının sayı, daxil olan və təqdim olunan bank ödəniş tapşırıqlarının və kassa mədaxil və məxaric orderlərinin sayı, sənədlərin tamlığı və düzgünlüyü, aktiv valyuta hesablarının sayı, malsatanların və sifarişçilərin sayı çox və ya az ola bilər. Böyük dövriyyələr bir neçə sənədlə rəsmiləşdirilə bilər, lakin auditin aparılmasına az vaxt sərf olunduğundan qiymətlər aşağı ola bilər. Yaxud əksinə, dövriyyə aşağıdır, lakin kiçik məbləğlərlə rəsmiləşdirilən çoxsaylı sənədləşmələr olarsa auditin aparılmasına çox vaxt sərf olunduğundan qiymətlər yuxarı olacaqdır.

- Tətbiq olunan mühasibat uçotu proqramı. Mükəmməl mühasibat proqramı tətbiq olunan müəssisələrdə audit sürətlə aparıla bilər. Audit üçün zəruri olan məlumatları mühasibat proqramlarından əldə etmək və nəzarəti həyata keçirmək asandır. Kağız daşıyıcılarında və ya standartlardan kənar formalarda uçotu qurulan, əməliyyatları uyğun qaydada proqramda yerləşdirilməyən, düzülməyən müəssisələrdə auditin aparılmasında çətinliklər olacağı istisna deyil.

- Müəssisədə daxili nəzarət qaydalarının vəziyyəti. Auditor öz işinin nəticələrini qanunvericiliyə və müəssisədə uçot siyasətinə uyğun tətbiq olunan daxili nəzarət qaydalarına əsasən qiymətləndirir. Daxili nəzarət qaydaları mükəmməl olmayan və ya ona düzgün riayət edilməyən müəssisələrdə auditin nəticələrinin qiymətləndirilməsi o qədər də rahat deyildir.

- Auditin nəticələrinin riski. Bəzən bir saat ərzində qiymətləndiriləcək rəy verilməsi mümkün olan bir əməliyyat üçün auditor tərəfindən verilən rəy (hesabat) auditoru gözlənilməz vəziyyətlərə salır. Məsələn, mübahisəli məsələlərin baş verdiyi əməliyyatlar üzrə verilən rəyə görə auditor gələcəkdə məhkəmə qarşısında izahat vermək məcburiyyətində qala bilər. Yaxud da ziddiyyətli məqamlar üzrə qısa vaxtda rəy verən auditor rəydə göstərdiyini sübut etməyin çətinliyini və məsuliyyətini nəzərə alaraq, auditor xidmətinin qiymətini artırmaq məcburiyyətində olur.

- Ezamiyyə xərcləri. Auditin aparıldığı yer kənardadırsa, yol və mehmanxana xərcləri auditin dəyərinə əlavə olunur.

- Digər faktorlar. Məsələn, əvvəlki dövrlərlə auditin aparılması, mühasibin dəyişilməsi, axırıncı vergi yoxlamasının dövrü də auditə sərf olunan vaxtın müəyyənləşdirilməsinə təsir göstərir.

Bütün bu amillər, yəni əməliyyatların həcmi və tətbiq olunan texniki şərait auditor yoxlamasına sərf olunacaq əməyə və vaxta təsir etdiyinə görə, auditin qiymətləri müxtəlif ola bilər. Digər tərəfdən də sifarişçilərlə uzunmüddətli münasibətlər, həmçinin sifarişçidən asılı olmayan amillər, məsələn, auditor təşkilatın əməkdaşı üçün çəkilən investisiya xərcləri də dolayı xərclər kimi qiymətlərə təsir edir. Auditor hesabatlarının hazırlanma müddəti, əsasən, audit olunan təşkilatdan asılıdır. Bir sözlə, sifarişçi təsərrüfat subyekti audit üçün zəruri məlumatları vaxtlı-vaxtında təqdim etdikdə, auditor hesabatını planlaşdırılan müddətdə hazırlamaq olar.

Hazırda audit bazarında qiymətlər bir peşəkar auditor əməyindən istifadə olunmaqla maliyyə hesabatlarının auditi üzrə xidmətin dəyəri orta hesabla xidmətin başa çatdırılması 3 gündək mümkün olduqda 1000 manatadək, 4-5 gün ərzində mümkün olduqda 1500-2500 manat, 6-10 gün ərzində mümkün olduqda 3000-4500 manat, 10 gündən artıq olduqda isə 5000-10000 manat dəyərində müəyyənləşdirilir. Öz brendlərindən istifadə edən böyük auditor təşkilatları isə qiymətlərə xeyli əlavələr edirlər. Çünki həmin təşkilatlar öz brendlərini qoruyub saxlamaqdan ötrü böyük xərclər çəkir və işçiləri, əməkdaşları üçün iri investisiyalar qoyurlar ki, bu da həmin təşkilatlar üçün əlavə xərclər yaradır.

# Məcburi köçkünlərlə görüş

***Vergilər Nazirliyinin nümayəndələri 28 May - Respublika Günü və 15 İyun - Milli Qurtuluş Günü münasibətilə Ağcabədi rayonu ərazisində müvəqqəti məskunlaşmış Şuşa, Laçın, Ağdam, Füzuli və Xocavənd rayonlarından olan məcburi köçkünlərlə görüşmüşlər.***

Vergilər Nazirliyi Aparatının rəhbəri Asif Cahangirov məcburi köçkünləri əlamətdar bayramlar münasibətilə təbrik etmiş, onlara vergilər naziri Fazil Məmmədovun və nazirliyin kollektivinin salamlarını çatdırmış, hər iki bayramın ölkəmizin müstəqillik tarixində mühüm yer tutduğunu qeyd etmişdir: «1918-ci il mayın 28-də Şərqdə ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuşdur. O vaxt Azərbaycanın dövlət müstəqilliyinin qısa zaman kəsiyində mövcud olmasına baxmayaraq, xalqımız üçün taleyüklü məsələlər həll edilmiş, dövlətçilik ənənələrinin əsası qoyulmuş, Milli Ordu formalaşdırılmış, Şərqdə ilk universitet açılmışdır. 15 İyun - Milli Qurtuluş Günü də bilavasitə dövlətçiliyimizlə bağlı bayramdır. Tarix dəfələrlə sübut etmişdir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etmək qədər çətindir. 1990-cı illərin əvvəllərində Azərbaycan öz tarixində ikinci dəfə əldə etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalarkən ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtması ilə ölkənin varlığı üçün yaranan təhlükə dəf edildi. Məhz həmin dövrdən etibarən ölkəmiz inkişaf etməyə başlamış, ulu öndərimizin əsasını qoyduğu strategiya nəticəsində iqtisadi dirçəlişə nail olunmuşdur. Bu gün əldə edilmiş nailiyyətlər möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir».

Vergilər Nazirliyinin məsul işçiləri qaçqın və məcburi köçkünlərlə söhbət etmiş, onların qayğıları ilə maraqlanmışlar. Prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı 2004-cü il 1 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı»na uyğun olaraq, hökumətin bu istiqamətdə gördüyü işlər qeyd edilmişdir. Görüşlərdən sonra məcburi köçkünlərə bayram sovqatları çatdırılmışdır.

# Bölgələrdə sahibkarlarla görüşlər keçirilmiş, yeni xidmət mərkəzləri istifadəyə verilmişdir

***İyun ayının 12-də Tərtər və Bərdə şəhərlərində Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin, ərazi vergilər idarələrinin, sahibkarların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə vergi ödəyiciləri ilə görüşlər keçirilmiş, şəhərində daha iki Vergi Ödəyicilərinə Xidmət Mərkəzinin açılışı olmuşdur.***

Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov tədbir iştirakçılarının nəzərinə çatdırmışdır ki, vergilərin könüllü ödənilməsi sisteminin və sahibkarlığın inkişafı məqsədilə Vergilər Nazirliyi tərəfindən regionlarda, xüsusilə vergi orqanı olmayan iri şəhər və rayonlarda vergi ödəyicilərinə xidmət mərkəzləri yaradılır. Hazırda respublikada müasir standartlara cavab verən 34 belə xidmət mərkəzi uğurla fəaliyyət göstərir və cari ildə daha 6 mərkəzin istifadəyə verilməsi nəzərdə tutulur. Xidmət mərkəzlərində də vətəndaşlara vergi qanunvericiliyinin tətbiqi barədə izahatlar verilir, vergi bəyannamələrinin elektron formatda düzgün tərtib edilməsi və göndərilməsi, vergi ödəyiciləri ilə vergi orqanı arasında elektron sənəd mübadiləsinin aparılması ilə bağlı xidmətlər göstərilir. Burada həmçinin sahibkarlıq fəaliyyətinə yeni başlamaq istəyən şəxslər üçün təlimlər də keçirilir.

Vergi ödəyicilərinə xidmət idarəsinin rəis müavini Elçin Məmmədov 2011-2015-ci illəri əhatə edən «Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası»nın yerinə yetirilmə vəziyyəti, vergi sistemində tətbiq olunan elektron xidmətlər barədə görüş iştirakçılarına məlumat vermişdir. Bildirilmişdir ki, hazırda bəyannamələrin əvvəlcədən doldurulması sisteminin, universal telefon məlumat xidmətinin və vergi ödəyicilərindən daxil olmuş standart SMS-lərin avtomatik olaraq SMS vasitəsilə cavablandırılması mexanizminin yaradılması, həmçinin vergi bəyannamələrinin real vaxt rejimində (onlayn) göndərilməsi mexanizmlərinin təkmilləşdirilməsi üzərində iş gedir.

Görüşlərdə yerli vergi ödəyicilərini və sahibkarların ictimai təşkilatlarının nümayəndələrini maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılmışdır.

| İYUN | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | 3 |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | |

vergi təqvimi

Qeyd: ***Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.***

**Ödənilən vergi:**

**20 iyun** - «3», «4», «8», «10.1», «10.2» və «10.3»

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

mühasibat

# Aktivin son qalıq dəyərinin təyin olunması

Qulu Soltanov,
sərbəst auditor

MMUS üzrə torpaq, tikili, avadanlıq, nəqliyyat vasitəsi və bu sinfə aid olan digər uzunmüddətli aktivlər alınaraq mühasibat uçotunda mədaxil edilərkən mühasiblərin bilməli olduğu vacib məsələlərdən biri də akivin son qalıq dəyəri təyin olunmalıdır.

Ənənəvi uçotun tətbiqi zamanında «son qalıq dəyəri»nin sıfır olduğunu düşünərdilər. Əvvəllər əsas vəsaitin istismar müddəti boyunca, yəni əsas vəsaitin tam aşınaraq istismara yararsız olan vəziyyətə qədər amortizasiya hesablanır və sonda da qalıq dəyər sıfıra bərabər olardı. Əgər əsas vəsait istismar müddəti tam başa çatmayanadək çıxdaş edilərsə (satış, vaxtsız ləğvetmə, fövqəladə hallarda itki, oğurlanma), satış dəyəri ilə satış tarixinə qalıq dəyəri arasındakı fərq mənfəət və ya zərərə aid edilirdi.

«Son qalıq dəyər» əsas vəsait barəsində siyasətin müəyyənləşdirilməsi nəticəsində meydana gəlir və əsas vəsait barəsində onun dəyərinin xərclərə silinməsini obyektiv olaraq tənzimləyir.

***Misal.*** Müəssisə tərəfindən 2011-ci ildə çap aparatı avadanlığı alınmışdır. Avadanlığın istismar müddəti 5 il və ilkin dəyəri 5000 manat olmaqla uçota alınmışdır. Avadanlıqdan 3 il istismar olunduqdan sonra 1400 manata satılması nəzərdə tutulmuşdur.

Ənənəvi uçot üzrə hər il üçün 1000 (5000 : 5 il) manat amortizasiya hesablanması nəzərdə tutulacaq və avadanlıq 3 ildən sonra satılmışdırsa satış dövründə onun qalıq dəyəri 2000 (5000 - (1000 x 3 il)) olacaqdır. 3 ildən sonra xərclərə 600 (2000-1400) manat əlavə olunacaqdır.

MMUS üzrə hər il üçün 1200 ((5000-1400) : 3 il) manat amortizasiya hesablanması nəzərdə tutulacaq və avadanlıq 3 ildən sonra satılmışdırsa satış dövründə onun qalıq dəyəri 1400 (5000 - (1300 x 3 il)) olacaqdır. 3 ildən sonra xərclərə 0 (1400-1400) manat əlavə olunacaqdır.

Göründüyü kimi, ənənəvi uçotda illər üzrə amortizasiya məbləği az hesablanır və bu da mənfəətin süni olaraq artıq və ya əskik hesablanmasına gətirib çıxarır. MMUS-da isə amortizasiya olunan dəyər aktivin son qalıq dəyəri çıxıldıqdan sonra hesablandığına görə, amortizasiya məbləği elə bölüşdürülmüşdür ki, satış tarixinə zərər yaranmamışdır və ya zərər yaranma ehtimalı sıfıra yaxınlaşdırılmışdır. Buna görə də ədalətlilik və dürüstlük təmin olunmuşdur.

Son qalıq dəyəri bir çox hallarda sıfırdan çox ola bilər və bunun səbəbləri proqnozlaşdırılmalıdır. Əgər torpaq, tikili və avadanlıq üçün müəyyənləşdirilən aktiv faydalı istismar müddəti başa çatdıqdan sonra onun hələ də dəyərinin olacağı və ya ondan qazanc əldə ediləcəyi barədə böyük ehtimallar vardırsa, deməli, həmin aktivlərdən müəssisə istifadə etməsə də, bütövlükdə və ya sökülərək hissə-hissə satmaqla gəlir əldə etmək mümkündür. Əldə ediləcək gəlir isə son qalıq dəyəri kimi təzahür edir.

Ənənəvi uçotda əsas vəsaitlərin silinməsi nəticəsində ilkin dəyər ilə amortizasiya dəyəri arasındakı fərq son qalıq dəyəri kimi çıxış edir. Fərq ondadır ki, ənənəvi uçotda həmin məbləğ barədə əvvəlcədən düşünülmür və ehtimallar olunmur, amortizasiya hesablanmasında nəzərə alınmır.

7№-li MMUS-un 9-cu maddəsində göstərilir ki, «son qalıq (likvidasiya) dəyəri - torpaq, tikili və avadanlıqlara aid aktiv faydalı istismar müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra müəssisə tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğdir. 45-ci maddə üzrə aktivin həm son qalıq dəyəri, həm də faydalı istifadə müddəti ən azından hər maliyyə ilinin sonunda yenidən baxılmalıdır. Əgər ehtimallar əvvəlki qiymətləndirmələrdən fərqlənirsə, dəyişikliklər «Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər üzrə» 11 №-li Milli Mühasibat Uçotu Standartına uyğun olaraq uçot qiymətlərində dəyişikliklər kimi uçota alınmalıdır.

7№-li MMUS üzrə Şərhlər və Tövsiyələrdə göstərilir ki, aktivin amortizasiya olunan dəyəri aktivin son qalıq dəyəri çıxıldıqdan sonra müəyyən olunmalıdır. Lakin aktivin son qalıq dəyəri əhəmiyyətsizdirsə, o, amortizasiya olunan dəyərin hesablanması zamanı daxil edilməməlidir. Torpaq, tikili və avadanlıq obyektinin son qalıq dəyəri - gözlənilən xaricolma dəyəri çıxılandan sonra müəssisənin aktivin faydalı istismar müddətinin sonuna nəzərdə tutduğu xalis məbləğdir.

Məsələn, aktivin ilkin dəyəri 1000 manat və faydalı istismar müddəti 5 ildir. Fərz olunur ki, faydalı istismar müddətinin sonuna aktiv 300 manata satılacaq və kommersiya xərcləri 80 manat (sökülmə və nəqliyyat xərcləri) təşkil edəcəkdir.

Bu halda son qalıq dəyəri: 220 manatdır (300 - 80); amortizasiya edilən məbləğ: 780 manat (1000 - 220) olacaqdır.

Əgər aktivin son qalıq dəyəri əhəmiyyətlidirsə, onda:

(a) ilkin dəyər modeli tətbiq edildikdə qalıq dəyəri aktivin alınma tarixində qiymətləndirilməli və hər balans hesabatı tarixində baxılmalı və əgər zəruridirsə, dəyişdirilməlidir;

(b) yenidən qiymətləndirmə modeli tətbiq edildikdə, aktivin yeni qalıq dəyəri hər növbəti yenidənqiymətləndirmədən sonra təyin edilməlidir.

xarici ölkələrdən vergi xəbərləri

# ABŞ vergi agentlərini dəstəkləyir

ABŞ-ın Ölkədaxili Gəlirlər Xidməti rəsmi bəyanatında növbəti dəfə qeydiyyata alınmış vergi agentlərinin xidmətlərindən istifadə etməyin zəruriliyini vurğulamış və milli vergi sisteminin normal fəaliyyət göstərməsi üçün onların rolunun əhəmiyyətini qeyd etmişdir.

Hazırda ABŞ-da vergi xidməti sahəsində 340 min şəxs çalışır və vergi xidməti mütəxəssisləri üçün 260 imtahan mərkəzi fəaliyyət göstərir. Ölkədaxili Gəlirlər Xidmətinin məlumatına görə, hazırda 4,8 min nəfərə yaxın vergi agenti rəsmi qeydiyyatdan keçmişdir. 2014-cü ildən başlayaraq yalnız rəsmi qeydiyyatdan keçmiş vergi agentləri fərdi vergi ödəyiciləri adından vergi hesabatlarının doldurulması sahəsində fəaliyyət göstərə biləcəklər.

# Ukrayna vergi yoxlamalarının azaldılmasına görə öndədir

2011-ci ildə Ukraynada vergi yoxlamalarının sayı 61,3% azalmışdır. Bu fakt MDB üzvü olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının Bakıda keçirilmiş 19-cu iclası zamanı bəyan edilmişdir. «Sözü gedən vaxt ərzində Rusiyada vergi yoxlamalarının sayı 11,8% azalmış, Belarusda, Moldovada, Qırğızıstanda, Tacikistanda isə artmışdır», - bəyanatda bildirilir.

Ukraynanın Dövlət Vergi Xidmətinin rəhbəri Aleksandr Klimenko bildirmişdir ki, hazırda onun rəhbərlik etdiyi qurum öz konsepsiyasını dəyişərək maliyyə müəssisəsindən xidmət müəssisəsinə çevrilməkdədir. Bununla əlaqədar olaraq, ölkədə biznesə təzyiq xeyli azalmışdır. A.Klimenko bu konsepsiyanın həyata keçirilməsinin təsdiqi kimi bir faktı vurğulamışdır ki, 2011-ci ildə onun ölkəsində sadələşdirilmiş vergi ödəyicilərinin nisbəti 45,5% təşkil etmişdir. Xatırladaq ki, bu göstərici Azərbaycanda da yüksəkdir - 37,1%. Bununla belə, vergi ödəyicilərinin ümumi sayı ilə nisbətdə sadələşdirilmiş vergi ödəyicilərinin sayı Qırğızıstanda 19%, Moldovada isə cəmi 2,2% təşkil edir.

# Latviyada sağlamlıq vergisi gündəmdədir

Latviyanın Səhiyyə Nazirliyi gələn ildən sağlamlıq vergisi tətbiq etmək niyyətindədir. Nazirliyin planına görə, bu vergi əhalinin gəlir vergisi dərəcəsinin 5%-i qədər olmalıdır - ölkədə gəlir vergisinin dərəcəsi hazırda 25%-dir. Layihəyə görə, gəlir vergisi ödəyicisi olmayan insanlar isə büdcəyə ayda 25 lat (təxminən 40 dollar) köçürməlidirlər. Sağlamlıq vergisi ödəməyən insanlar, təcili tibbi yardım istisna olunmaqla, pulsuz səhiyyə xidməti göstərilməsindən məhrum olunacaqlar. Əhalinin bəzi kateqoriyaları isə bu vergidən azad ediləcəklər.

Yeni qanun 2013-cü ilin ikinci yarısından tətbiq olunmağa başlayacaq. Məcburi sağlamlıq sığortası ilə bağlı konsepsiya baxılmaq üçün hökumətə təqdim olunacaq.

Səhiyyə Nazirliyinin mövqeyinə görə, bu, ölkədə səhiyyə xidmətinin maliyyələşdirilməsinin əsasını təşkil edəcək, bununla yanaşı, səhiyyənin dövlət büdcəsindən maliyyələşdirilməsi də davam etdiriləcək.

# Çin hökuməti ölkə vətəndaşlarının investisiyalarını stimullaşdırır




Çinin vergi orqanları ən yaxın vaxtlarda ölkədə xarici vətəndaşların vergidən yayınma hallarının aşkara çıxarılması və belə hallara qarşı mübarizə metodlarını dəyişəcək, daha aktiv üsullardan istifadə edəcəklər. Bununla yanaşı, Çinin vergi xidməti milli biznesin dəstəklənməsi üçün səmərəli mexanizmlər yaradılmasını əsaslı şəkildə gücləndirəcək. Yerli işgüzar dairələrin fəaliyyət göstərmək niyyətində olduqları ölkələrin vergi qanunvericiliyi ilə yaxından tanış ola bilmələri üçün lazımi tədbirlər görüləcək. Ölkənin vergi xidməti, həmçinin, xaricdə fəaliyyət göstərən Çin şirkətləri üçün ümummilli məlumat sistemi yaratmaq niyyətindədir.

Çin Xalq Respublikasının dövlət vergi administrasiyası «Beylnəlxalq vergi sisteminin yaradılması barədə rəy» adlı icmal təhlilini nəşr etmişdir. Bu sənəddə Çindəki xarici investorların və sahibkarların fəaliyyətinin vergi baxımından tənzimlənməsi məsələləri, eləcə də Çin vətəndaşlarının xarici ölkələrdə investisiya qoymaq fəaliyyətləri müfəssəl şəkildə təhlil olunmuşdur. Sənəddəki materiallara əsasən,

idman xəbərləri

# Avropa çempionatında ilk tur başa çatdı

Polşa və Ukraynada keçirilən futbol üzrə Avropa çempionatı davam edir. Artıq çempionatda iştirak edən bütün komandalar ilk oyunlarını keçiriblər. Dünən isə A qrupunda çıxış edən Yunanıstan-Çexiya qarşılaşması ilə 2-ci tura start verilib.

**İlk turdan sonra çempionatın tablosu:**

| 8 iyun - A qrupu | 9 iyun - B qrupu | 10 iyun - C qrupu | 11 iyun - D qrupu |
|---|---|---|---|
| Polşa-Yunanıstan - 1:1 (1:0) | Hollandiya-Danimarka - 0:1 (0:1) | İspaniya-İtaliya - 1:1 (0:1) | Fransa-İngiltərə - 1:1 (1:1) |
| Rusiya-Çexiya - 4:1 (2:0) | Almaniya-Portuqaliya - 1:0 (0:0) | İrlandiya-Xorvatiya - 1:3 (1:2) | Ukrayna-İsveç - 2:1 (0:0) |



# Daha bir Olimpiya lisenziyası qazandıq

Azərbaycan London Yay Olimpiya Oyunlarına daha bir lisenziya əldə etmişdir. Yüngül atletimiz Hayle İbrahimov Fransanın Lill şəhərində başa çatan beynəlxalq turnirdə 5000 metr məsafəyə qaçış yarışında 13 dəqiqə 20,09 saniyə nəticə göstərərək, Olimpiya normativini yerinə yetirmişdir. Bununla da idmançımız ölkəmizə 13-cü Olimpiya lisenziyasını qazandırmışdır.

# Erməni qrossmeyster «mat» qaldı

Moskvada «Tal Memorialı» qrossmeyster superturniri keçirilmişdir.

Turnirdə FİDE reytinq-vərəqinin lideri Maqnus Karlsen (Norveç, 2835), Levon Aronyan (Ermənistan, 2825), sabiq dünya çempionu Vladimir Kramnik (Rusiya, 2801), qarşıdan gələn iddiaçılar turnirinin iştirakçıları Teymur Rəcəbov (Azərbaycan, 2784) və Aleksandr Qrişşuk (Rusiya, 2761), dünya üzrə ilk onluğun nümayəndələri Xikaru Hakamura (ABŞ, 2775), Fabiano Karuana (İtaliya, 2770) və Aleksandr Morozeviç (Rusiya, 2769), 2009-cu ilin Avropa çempionu Yevgeni Tomaşevski (Rusiya, 2738), habelə Rusiya Şahmat Federasiyasının saytında tamaşaçı səsverməsinin qalibi kimi turnirə dəvət etmiş Lük Makşeyn (İngiltərə, 2706) iştirak ediblər.

Birinci gün dairəvi sistemlə 9 turda blits turnir keçirilmişdir. Azərbaycan qrossmeysteri Teymur Rəcəbov 5-ci turda Ermənistan təmsilçisi Levon Aronyana qalib gəlmişdir. Digər oyunları heç-heçə başa vuran şahmatçımız Aleksandr Qrişşukla bərabər 5,5 xal toplamış, lakin əlavə göstəricilərə görə 4-cü yeri tutmuşdur.

# Avropa çempionatı başa çatıb

**Lənkəran Olimpiya İdman Kompleksində veteran ağır atletlər arasında XXII kişi və XX qadın Avropa çempionatı başa çatmışdır.**

Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Olimpiya Komitəsi, Ağır Atletika Federasiyası, Veteran Atletlər İctimai Birliyi və Avropa Usta Ağır Atletika Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışlarda bir həftə ərzində Avropanın 25 ölkəsini təmsil edən və yaşı 35-dən yuxarı olan 300-ə yaxın idmançı müxtəlif yaş qruplarında və çəki dərəcələrində qalib adı uğrunda mübarizə aparmışdır.

Avropa çempionatında komanda hesabında Almaniya birinci, Azərbaycan ikinci, Rusiya isə üçüncü nəticə göstərmişdir.

Qitə çempionatında 37 idmançı ilə (33 kişi, 4 qadın) çıxış edən Azərbaycan millisi 14 qızıl, 9 gümüş, 3 bürünc medal qazanmışdır. Qadın atletlərimizin hamısı fəxri kürsünün ən yüksək pilləsinə yüksəlmişdir.

krossvord




**Soldan sağa:**
1.Amerika səsyazma akademiyasının musiqi mükafatı; 7.Ürəyin əsas hissəsini təşkil edən orta təbəqə əzələsinin adı; 8.Gürcüstanın qərbində çay; 9.Misirdə anadan olmuş italyan mənşəli fransız müğənnisi və aktrisası; 10.İngilis neyrobioloqu (1875-1968), Nobel mükafatı laureatının adı (1936); 12.Xovsuz xalça növü; 17.Məşhur Amerika kinoaktrisasının adı (1929-1993). «Roma tətilləri» filminin baş qəhrəmanı; 18.1820-30-cu illərdə Parisdə yaranmış hərəkətli rəqs; 20.Çılpaqtoxumluların acılıqotukimilər fəsiləsindən həmişəyaşıl kol və ya ağac cinsi; 21.Dairənin mərkəzindən keçən radius; 22. Afrikada şəhər.

**Yuxarıdan aşağı:**
2.Görüş. 3.R.Kiplinqin məşhur «Cəngəlliklərin kitabı» əsərində personaj; 4.Papua-Yeni Qvineyada pul vahidi; 5.İnsan irqlərinin bioloji və psixoloji bərabərsizliyi barəsində nəzəriyyələr toplusu; 6.SSRİ-nin gürcü əsilli xarici işlər nazirinin adı; 11.Xristianlıqda, islamda və başqa dinlərdə Allahın və bəşəriyyətin əleyhdarı. Oddan yaradılmış cinlərdən birinin adıdır; 13.1957-ci ildə IBM proqramçıları tərəfindən yaradılan proqramlaşdırma dili; 14.Tağla örtülən, təkrarlanan eyni oyuqların sırası; 15.Səməd Vurğunun dram əsəri; 16.Qəhvə ağacı, çay və ya bu kimi digər bitkilərin tərkibində olan alkaloid; 19.Yunan mifologiyasında müharibə allahı - Zevs və Heranın oğlu...

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Soldan sağa:** 1.Fetiş; 4.Trend; 6.Solomos; 8.Venev; 9.Ayno; 11.Avva; 13.Yen; 14.Vıça; 16.Rada; 18.Almaz; 22.Kembric; 23.Memar; 24.İndri. **Yuxarıdan aşağı:** 2.Tuson; 3.Emma; 4.Tesey; 5.Dinqo; 7.Brodı; 10.Lex; 12.Verdi; 15.İslam; 17.Dakar; 19.Məcid; 20.Zəngi; 21.Amur.

Vergilər Nazirliyinin kollektivi BŞVD-nin Koordinasiya şöbəsinin rəisi Vüqar Müsayevə, əzizi
**Səfail Müsayevin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h 12-12258-1
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.

**Ünvan:** AZ 1073, Bakı ş., Landau küç.16

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnir və «CBS Polygraphic Production» mətbəəsində çap olunur.

**Tiraj: 16000**

# Sürrealizm

şedevrlər



Maqritt Rene. «Çətin keçid» (1926).

Fransada ötən əsrin əvvəllərində, birinci dünya müharibəsinin ab-havasında təşəkkül tapmış sürrealizm (fövqəlrealizm) cərəyanının nümayəndələri instinktləri bədii yaradıcılığın başlıca mənbəyi və estetik prinsipi sayırdılar. Yazıçı A.Brentonun təşəbbüsü ilə meydana gəlmiş sürrealizm üçün qəribəlik, irrosionallıq, standartlara cavab verməmək səciyyəvidir. Bu dövrdə şair və rəssamlar müharibənin dəhşətlərindən təsirlənib şüurdankənar arzular dünyasına üz tuturdular. Sürrealistlər dünyaya qarma-qarışıq hadisələr meydanı kimi baxır, hadisələr arasındakı məntiqi bağlılığı subyektiv assosiasiyalarla əvəz edirdilər.

Rəssamlıqda sürrealizm iki istiqamətdə inkişaf edirdi. Bir qrup rəssamlar (Maks Ernst, A.Mason, Miro, Arp) rəsm tablolarının yaranması prosesində şüuraltı başlanğıcı əsas götürürdülər, bu əsərlərdə mücərrədliyə çevrilən ixtiyari formalar, sərbəst obrazlar üstünlük təşkil edirdi. Salvador Dalinin başçılıq etdiyi cərəyan isə şüur altında peyda olan irreal obrazın canlandırılmasının illüziya dəqiqliyinə əsaslanırdı. Dalinin əsərləri təsvirin diqqətlə çəkiliş manerası, işıqla kölgənin dəqiq əvəzlənməsi, akademik rəssamlıq üçün səciyyəvi olan perspektivin dəqiq təqdimatı ilə seçilir. Rəsmin illüziya inandırıcılığına aludə olan tamaşaçı aldanışların və həlsiz bilmecələrin labirintinə düşür: bərk əşyalar ilğım kimi əriyir, qalın sədlər şəffaflaşır, bir-birinə uyuşmayan materiallar çulğalaşır, böyük kütləyə malik həcmlər çəkisizləşir və bütün bunlar mümkün olmayan şeylərin real obrazını yaradır. Sürrealizm sənətinin ümumi səciyyəsini absurdun fantastikası, məntiqi aldatma, formaların paradoksal uyğunlaşdırılması, obrazların dəyişkənliyi təşkil edir. Sürrealistlərin əsas məqsədi dərk olunmayan anlayışlar vasitəsilə həm maddi, həm də ideal aləmin hüdudlarından yüksəyə qalxmaq, burjuaziya sivilizasiyasının məzmununu itirmiş mənəvi dəyərlərinə qarşı üsyan etmək idi. Bu cərəyana mənsub olan rəssamlar öz tablolarında şüuraltının diqtə etdiyi və həqiqəti əks etdirməyən gerçəkliyi canlandırmağa çalışırdılar, lakin onların əsərləri əksər hallarda çaşqınlığa və ironiyaya səbəb olurdu...

# Kartof

sağlam hayat tarzi



Britaniya alimlərinin son araşdırmalarına görə, kartofun tərkibindəki faydalı qida maddələri, vitaminlər, minerallar dietoloqların daha çox tövsiyə etdikləri çuğundur, brokkoli, banan, qoz və avakado kimi meyvə və tərəvəzlərdən xeyli artıqdır. Mütəxəssislər kartofu ən ucuz və xeyirli pəhriz ərzağı adlandırırlar. Gündə iki dəfə kartof yemək tövsiyə olunur, bu, qan təzyiqinin nizamlanmasına kömək edir və kökəlmənin qarşısını alır. Kartofun tərkibində orta hesabla 76,3% su, 23,7% quru maddə, o cümlədən 17,5% nişasta, 0,5% şəkər, 1-2% zülal, 1%-dək mineral duzlar, C, B1, B2, B6, PP, K vitaminləri və karotinoidlər var. Xalq təbabətində kartof şirəsindən vərəmin, tənəffüs orqanlarının, mədə yarasının, onikibarmaq bağırsağın müalicəsində də istifadə edilir.

Xatırlatmaq yerinə düşər ki, kartof 1565-ci ildə ilk dəfə Amerikadan İspaniyaya, 17 əsrin sonunda Rusiyaya, 18 əsrin sonu-19 əsrin əvvəllərində isə Azərbaycana gətirilmişdir. Azərbaycan mətbəxində bu gün kartofdan çox geniş istifadə olunur: bu tərəvəz həm müxtəlif xörəklərə qatılır, həm də onun özündən müxtəlif yeməklər hazırlanır. Kartof kababını isə Azərbaycan mətbəxinin özünəməxsus nailiyyətlərindən hesab etmək olar.

**Kartofu basdırma ilə birlikdə sobada bişirmək üçün:**

- 4 nəfər üçün nəzərdə tutulan xörəkdə istifadə olunan ərzaqlar dörd bərabər hissəyə bölünür.
- Kartof soyulur, dairə şəklində doğranır. Pomidor soyulmadan ortadan bölünür, yarımdairə şəklində doğranır. Acı bibərin tumları çıxarılır, bir neçə parçaya bölünür.
- 30 x 40 santimetr ölçüsündə kəsilmiş alüminium folyonun ortasına kartof dilimləri kvadrat şəklində yan-yana düzülür.
- Üzərinə basdırma və pomidor dilimləri, acı bibər qoyulur, duz səpilir, ən üstə bir neçə parçaya kəsilmiş pendir dilimləri vurulur.
- Alüminium folyo paket formasına salınır. Hazırlanan 4 paket nimçəyə yerləşdirilir. Əvvəlcədən 200 dərəcəyə qədər qızdırılmış sobada 25-30 dəqiqəyə qədər bişirilir.
- Süfrəyə isti-isti verilir.

# Skripka və pianodan ev

maraqlı



Dünyada turizmin təşviq olunması, daha çox səyyahların cəlb edilməsi üçün rəqabət get-gedə güclənməkdə, insanları heyrətləndirən, sensasiyaya səbəb olan qurğular, turist mərkəzləri yaradılmaqdadır. Çində tikilmiş qəribə ev də bu rəqabətin meydana gətirdiyi gerçəklərdən biridir. Çinin Huainan əyalətində inşa edilmiş, kənardan baxanda nəhəng bir skripkanın söykəndiyi pianonu xatırladan ev artıq turistlərin yolunu gözləyir. Skripka ilə piano, daha doğrusu, iki bina bir-birinə skripkanın içərisindəki pilləkənlərlə bağlanır. Binanın içərisində musiqi məşğələləri keçmək üçün avadanlıqlar quraşdırılıb.

# Hacıbaba Bağırov

söz vaxtına çəkər

***Onun adı gələndə üzümüzdə təbəssüm dolaşır, hansısa komik rolunu xatırlayırıq. Söhbət istedadlı gülüş ustası Hacıbaba Bağırovdan gedir. Dünən onun anadan olmasının 80 illiyi tamam oldu...***



1932-ci il iyun ayının 12-də Bakı şəhərində fəhlə ailəsində anadan olmuş Hacbaba kiçik yaşlarından teatr sənətinə böyük həvəs göstərmişdir. 1947-ci ildə orta məktəbi bitirəndən sonra o, Azərbaycan Dövlət Akademik Dram Teatrı nəzdindəki aktyor studiyasına gəlmiş və burada peşəkar teatrın sirlərinə yiyələnmişdir. 18 yaşı tamam olar-olmaz - 1950-ci ildə Lənkəran Dövlət Dram Teatrında ilk müstəqil yaradıcılıq fəaliyyətinə başlamışdır.

O, öz peşəkar sənət yolunu 1960-cı ildə müəyyənləşdirmiş, Gəncə Dövlət Dram Teatrının aktyor truppasına qəbul olunmuşdur. Bu kollektivdə Fuad («Almaz»), Şahsuvar («Komsomol poeması»), Rəşid («Anacan») kimi müxtəlif səpkili rollar oynayan Hacıbaba 1962-ci ildə Musiqili Komediya Teatrına dəvət almışdır. Burada fəaliyyət göstərdiyi 26 il ərzində yaratdığı 50-dən çox rolun onun gülüş ustası kimi püxtələşməyində və populyarlığında böyük təsiri olmuşdur. Üzeyir Hacıbəyovun «Arşın mal alan»ında Soltan bəy, «O olmasın, bu olsun»da Məşədi İbad, Z.Hacıbəyovun «50 yaşında cavan»ında Orduxan, S.Ələsgərovun «Həmişəxanım»ında Cəbi Cüməzadə, «Hardasan, ay subaylıq»da Novruzəli, Ə.Abbasovun «Həyətim mənim - həyatım mənim»də Qulam, E.Sabitoğlunun «Hicran»ında Mitoş, «Nəğməli Könül»də Fərzəli, V.Adıgözəlovun «Nənəmin şahlıq quşu»nda Cəsarət, S.Hacıbəyovun «Qızılgül»ündə Nadir, A.Məşədibəyovun «Toy kimindir?»ində Uzun, E.Sabitoğlu, T.Vəliyevanın «Bankir Adaxlı», «Sizinlə gülə-gülə», «Bildirçinin bəyliyi», «92 dəqiqə gülüş» trilogiyasında Sonqulu, «Məhəbbət oyunu»nda Nuruş, «On min dollarlıq keyf»də Fərzəli kimi rolları tamaşaçıların dərin rəğbətini qazanmışdır.

H.Bağırovun teatrla yanaşı kino sahəsində də fəaliyyəti uğurlu olmuşdur. «Ulduz»da Möhsün, «Mehman»da Arif, «Onun bəlalı sevgisi»ndə Qaraxalov, «Alma-almaya bənzər»də Məmmədəli, «Şirbalanın məhəbbəti»ndə Şirbala rolları kino həvəskarları tərəfindən maraqla qarşılanmışdır. Hacıbaba Bağırov 1989-cu ildə «Tənqid-Təbliğ» Teatrını yaratmış, 1996-cı ilədək teatrın direktoru və bədii rəhbəri vəzifələrində çalışmışdır. 1996-cı ildən isə Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru, bədii rəhbəri olmuşdur. O, 2001-ci ildə E.Sabitoğlu ilə T.Vəliyevanın yazdığı «Bankir adaxlı» tamaşasına görə «Qızıl Dərviş» mükafatına layiq görülmüşdür. Hacıbaba Bağırovun teatr və kino sahəsindəki uğurlu fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş - 1974-cü ildə respublikanın əməkdar artisti, 1982-ci ildə xalq artisti fəxri adlarına layiq görülmüşdür.

# Sabah Ümumdünya Qan Donoru Günüdür

***2005-ci ilin mayında Ümumdünya Səhiyyə Təşkilatının Assambleyasında könüllü qan donorluğunu dəstəkləyən bəyanat qəbul edilib. Bəyanatda hər il 14 iyun tarixinin Ümumdünya Qan Donoru Günü kimi keçirilməsi qərara alınıb.***



Ümumdünya Qan Donoru Günü bütün dünyada qeyd olunaraq Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyəti, bir sıra digər təşkilat və qurumlar tərəfindən dəstəklənir.

Bütün dünyada təhlükəsiz donor qanına ehtiyac artmaqdadır. Təcrübə göstərir ki, ən təhlükəsiz olan məhz könüllü və təmənnasız donorların qanıdır. Təhlükəsiz qan, onun komponentləri və preparatları hər il minlərlə hamiləlik və doğuş zamanı ağırlaşması olan anaları, körpə uşaqları, xəsarət alanları və digərlərini ölümdən xilas etməyə kömək edir.

Müasir təbabətdə həkimlərin əlində çoxlu müalicə vasitələri olmasına baxmayaraq, ən ağır vəziyyətlərdə xəstələrin həyatlarının xilas edilməsi üçün əvəzsiz rol oynayan canlı dərman donor qanıdır. Müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qanitirmələrdə, xroniki qan azlığında, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji xəstəliklərdə, daxili orqanların (ürək, böyrək, mədə-bağırsaq, qara ciyər və s.) müxtəlif xəstəliklərində qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Qandan belə geniş istifadə edilməsi ona olan tələbatı da artırır. Bununla əlaqədar olan məsələlərin həllində qan donorluğunun, xüsusən təmənnasız donorluğun böyük əhəmiyyəti vardır. Xalqımızın donorluğa östərdiyi rəğbət, insanpərvərlik, xeyirxahlıq və humanizmi, həmrəyliyi bu işin təşkilinə böyük kömək edir.

Ölkəmizdə yayılmış hemofiliya və talassemiya xəstələrinin müalicəsində qan komponentlərinin və preparatlarının istənilən vaxtda əlçatan olması çox vacibdir və donor qanına tələbatı artırır.

Səhiyyə Nazirliyinin «2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramının həyata keçirilməsi» və «Qan xidməti müəssisələrinin şəbəkəsinin optimallaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi» barədə əmrləri donor qanına tələbatın ödənilməsinə yönəldilib. Lakin donorluğun inkişafı üçün tək Səhiyyə Nazirliyi deyil, müxtəlif hökumət və qeyri-hökumət qurumları, görkəmli xadimlər, kütləvi informasiya vasitələri öz töhfəsini verməlidir.

14 iyunun Beynəlxalq Donor Günü kimi qeyd edilməsinin məqsədi bir daha könüllü qan donorlarına hörmət və ehtiramı nümayiş etdirmək, cəmiyyətdə donor qanına olan ehtiyac və zəruriyyəti vurğulamaq, donorluğa yeni insanları cəlb etməkdir.

# Kağız radioaktiv şüalanmanın qarşısını alır



Yaponiyanın daxili bazarında çap və poliqrafiya avadanlıqlarının istehsalı üzrə ikinci yeri tutan «Toppan» şirkəti xüsusi texnologiya əsasında kağız istehsal etmişdir - bu kağız radioaktiv şüalanmanın keçməsinə imkan vermir. Kağızdakı yüksək volfram tərkibi qurğuşun təbəqələri kimi ən yüksək nüfuzetmə qabiliyyətinqə malik qamma-şüaları keçirmir. Qurğuşundan fərqli olaraq, kağız daşınmaq üçün çox yüngüldür və insan sağlamlığına təhlükəli deyildir.

Standart vərəqin qalınlığı 0,3 millimetrdir. Bu cür üç vərəqin qalınlığı bir qurğuşun təbəqəsinin qalınlığı qədərdir. Şirkət öz məhsulunun hər kvadratmetrini 28-32 min ienə (358-410 dollar) satmaq niyyətindədir.

**Müdriklər deyib ki...**



*«Həqiqət tənqidi sevir, çünki tənqiddən yalnız udur; yalan tənqiddən qorxur, çünki tənqidə məğlub olur».*

***Deni Didro (1713-1784)***

Səhifəni **Məti OSMANOĞLU** aparır | *osmanogm@yahoo.com*